www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 18 iyun 2015-ci il Cümə axşamı № 131 (6159) Qiyməti 40 qəpik

**Müqəddəs Ramazan ayı başladı**

## Gündəm

### Türkiyədə “deputat transferi” iddialarında “Azərbaycan izi”




AKP-nin təkbaşına hökumət qurması üçün lazım olan 18 deputatın başqa partiyalardan pulla alınacağına dair sensasion bilgilər var...

yazısı səh.4-də

### Avropa Oyunlarından sonra siyasi arenada nə baş verəcək...

yazısı səh.3-də

### Süleyman Dəmirəl vəfat etdi

yazısı səh.8-də

### Qovulmuş diplomatla bağlı yeni təfərrüatlar...

yazısı səh.9-da

### İsveçrə bankları şübhəli hesabları açıqlayır

yazısı səh.2-də

### MSK Rizvan Vahabovun gizlətdiyi əmlaklarını üzə çıxarıbmış...

yazısı səh.10-da

### Yanmış binanın təmirində sakinlərlə iş icraçıları üz-üzə...

yazısı səh.12-də

### Erməni deputat Gümrü bazasına görə Rusiyaya üsyan etdi

yazısı səh.13-də

### Hüquq müdafiəçisinin məhkəmə işində müəmmalı gedis

yazısı səh.2-də

### Rusiyanın Qarabağı qaytaracağına iki(li) baxış

yazısı səh.13-də

### Ramazan ayının 1-ci günü

İftar 21.29. İmsaq (azan) 4.39 (QMİ)

1-ci günün duası: “İlahi, bu gün mənim orucumu həqiqi oruc tutanların orucundan və durub Sənə ibadət eləməyimi həqiqi ibadət edənlərin ibadətindən hesab et. Və bugünkü gündə məni qəflətdə yatanların yuxusundan oyat. Günahlarımı bağışla, ey aləmlərin Allahı və günahkarları əfv Edən”.

İftar duası: “Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla”.

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

İmsaqın son həddi azandan 20 dəqiqə əvvəldir.

## Abid Şərifovun kodlu mesajları

# DƏHŞƏTLİ YANĞININ BİR AYI: YENİ SENSASİON MƏLUMATLAR

Həbs edilənlər iş üzrə şikayət verməyiblər; general qardaşının həbsini soyuqqanlı qarşılayıb; Avropa Oyunlarından dərhal sonra bu işlə bağlı bir neçə iri məmurun da işdən çıxarılacağı iddia olunur - onların sırasında iki icra başçısı da var



yazısı səh.5-də

## “Oliqarxgeyt” işi - Avropa Oyunlarından sonra yeni həbslər olacaq

Beynəlxalq Bankdan götürülən kreditlərin tam qaytarılması üçün borclu sahibkarların əmlakları siyahıya alınıb; sərbəst buraxılanların isə yenidən məsuliyyətə cəlb olunacaqları deyilir

yazısı səh.9-da



*Eynulla Fətullayev:*

### “Cəmil Həsənli bir qab bozbaşa görə...”

yazısı səh.7-də



### Müsavat başqanı Avropa İttifaqının konfransında çıxış etdi

yazısı səh.3-də



*Rauf Arifoğlu:*

### “Əli Kərimli bu savaşın qızışmasını istəyir”

yazısı səh.4-də

**18 iyun 2015**

YENİ MÜSAVAT
N 131 (6159) 18 iyun 2015



## Prezident səhiyyə işçilərini təltif etdi

**Azərbaycan prezidenti İlham Əliyev səhiyyə işçilərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. APA-nın məlumatına görə, Azərbaycan səhiyyəsinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilib:**

Cəfərov Mühübali Cəfər oğlu
Cabarova Kübra Teymur qızı
Hüseynova Sevil Fazil qızı
Rzayeva Hafizə Vəli qızı
Rəhimova Dürdanə Nadir qızı
Şəfiyeva Pərvanə Əskər qızı
Şuqayev Nazim İlyasoviç
Tarverdiyeva Şəfəq Tarverdi qızı
Yusifova Sevinc İsaq qızı.




## Azərbaycanın 10-cu qızıl medalı...

Və ermənilər üçün Bakıda qara gün...

**İyunun 16-sı Azərbaycanın qazandığı medalların sayı 19-a çatıb. İyunun 17-də I Avropa Oyunları çərçivəsində keçirilən yarışlarda Olimpiya çempionumuz Toğrul Əsgərov qızıl medal qazanıb. Müsavat.com-un Oyunlar zalında olan əməkdaşının məlumatına görə, güləşçimiz finalda Frank Kamizo Marquesla (İtaliya) üz-üzə gəlib. Toğrul hesabda 0:2 hesabı ilə geri düşməsinə baxmayaraq, ilk hissədə cütün taleyini həll edib. Avropa və dünya çempionu Xetaq Qazyumov da Oyunları çempion kimi başa vurub. Apasport.az saytının məlumatına görə, Xetaq finalda gürcüstanlı Elizbar Odikadze ilə güləşib. Həlledici qarşılaşma da təmsilçimiz üçün uğurla başa çatıb. Görüşü 3:1 hesabı ilə xeyrinə bitirən Qazyumov Oyunları çempion kimi başa vurub. Bu, yığmamızın 10-cu qızıl medalı, ümumilikdə isə 22-ci mükafatı olub.**

Müsavat.com-un müxbirinin məlumatına görə, Avropa Oyunlarında qadın voleybolçular arasında da növbəti turun oyunları keçirilib. Bakı Kristal Zalında komandalar III turun matçına çıxıb. A qrupunda yer alan Azərbaycan yığması İtaliya ilə üz-üzə gəlib və 3:1 hesabı ilə qələbə qazanıb.

Oyunlar çərçivəsində həmçinin taekvando üzrə kişilər 68 kq, qadınlar 57 kq çəki dərəcəsində mübarizəyə start verib.

Kişilər arasında 68 kq çəkidə Azərbaycan təmsilçisi Ayxan Tağızadə yarışa ilkin mərhələdən başlayıb. Sloveniyalı Yure Pantarı 11:3 hesabı ilə məğlub edən idmançı 1/4 finalda London-2012-nin qalibi, ikiqat dünya və ikiqat Avropa çempionu Xoel Qonzales Bonilla (İspaniya) ilə üz-üzə gəlib. 19 yaşlı idmançımız 7:5 hesabı ilə qalib gələrək, yarımfinalda iştirak hüququ qazanıb.

O, finala gedən yolda Aleksey Denisenko ilə döyüşüb və rəqibini məğlub edib - 7:5.

Qarşılaşmanı Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva izləyiblər.

Qadınlar arasında 57 kq çəkidə yarışan Azərbaycan təmsilçisi Günay Ağakişiyeva isə ilk oyunda serbiyalı Draqana Qladoviçə 8:4 hesabı ilə uduzub.

***

Bakıda keçirilən I Avropa Oyunlarının dünən baş tutan yarışları Ermənistan güləşçiləri üçün uğursuz olub. ANS PRESS-in məlumatına görə, 57 kq çəkidə çıxış edən Qarik Barseqyan, 65 kq çəkidə David Safaryan və 74 kq çəkidə Qriqor Qriqoryan medal qazana bilməyib.

David Safaryan debüt oyununda makedoniyalı Deyana Mitrovaya qalib gəlsə də 1/8 finalda bolqar Borislav Novaçkovaya 6:8 hesabı ilə məğlub olaraq mübarizəni dayandırıb.

Qarik Barseqyan isə 1/8 finalda bolqar Vladimir Dubovoa 4:0 hesabı ilə qalib gəlib. 1/4 finalda Azərbaycan pəhləvanı Yaşar Əliyevlə üzləşən erməni idmançı 6:10 hesabı ilə məğlub olub. Təmsilçimiz erməni güləşçini qızıl medal yolundan kənarlaşdırıb.

Qriqor Qriqoryan isə bolqar Kiril Terzievə 1/8 final mərhələsində 8:11 hesabı ilə məğlub olaraq yarışdan kənarda qalıb.

Qeyd edək ki, erməniləri məğlub edən güləşçilər finala çıxa bilməyib. Bu isə Ermənistanın bürünc medal ümidlərini puç edib.

## Neftin qiyməti kəskin bahalaşdı

**Brent markalı neftin 1 barelinin qiyməti 65 dollar olub. Axar.az xəbər verir ki, Brent markalı neft bu gün 2,04% bahalaşıb. VTİ (WTI) markalı neft isə 1,78% bahalaşaraq 61,04 dollar olub. Qeyd edək ki, dünən səhər Brent markalı neftin qiyməti 63 dollar olmuşdu. - See more at: http://axar.az/news/55536#sthash.NJ1PEtp9.dpuf**

# Azərbaycan siyasətçiləri Ukraynada vəzifəyə gedərlərmi?

## Pənah Hüseyn: "Eksperiment uğurlu çıxacaqsa..."
## Sülhəddin Əkbər: "Mənə belə bir təklif gələrsə..."

**Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili Ukraynanın Odessa vilayətinə qubernator təyin edilib. Bu təyinat təkcə Ukraynada deyil, Azərbaycanda da maraqla qarşılanıb.**

Elçibəy hakimiyyəti dövründə yüksək vəzifələrdə çalışmış şəxslərə belə təkliflər olarsa, onların bu məsələyə necə yanaşacaqları maraq doğurur.

Keçmiş baş nazir Pənah Hüseyn Saakaşvilinin təyinatını yeni bir hadisə adlandırdı: "Son dövrlərdə müşahidə olunan yeni bir hadisədir. Belə hallar 150-200 il əvvəl geniş şəkildə tətbiq olunurdu. Bu onu göstərir ki, dünyadakı qlobal prosesləri idarəetmə iqtidarında olan, yaxud özünü bu missiyada hiss edən qüvvələr, artıq kənardan gətirilən kadrlar vasitəsilə vəziyyəti dəyişdirməyə səy göstərirlər. Bir növ dünya siyasətinin istiqaməti kimi də baxıla bilər. Bu baxımdan öyrənilməsi ciddi əhəmiyyətə malik hadisədir. Əgər eksperiment uğurlu olacaqsa, prosesin sonrakı taleyi də bundan asılı olacaq. Bu, fövqəladə əhəmiyyəti olacaq hadisədir. Azərbaycanda 80-ci illərin sonu-90-ci illərin əvvəllərində baş verən proseslərdə iştirak edən şəxslərin xaricdə iş aparmalarına ehtiyac yoxdur. Bunlar Azərbaycanda öz sözlərini hələ axıra qədər deməyiblər. Məncə, indiki proseslərin həlli üçün həmin nəslin enerji, təcrübəsindən Azərbaycan xalqı istifadə etməlidir".


Pənah Hüseyn


Sülhəddin Əkbər

**Elçibəy hakimiyyəti dövründə MTN-in birinci müavini işləmiş Sülhəddin Əkbər belə bir təklifin şərəf məsələsi olduğunu düşünür:** "Hər hansı bir demokratik şəxsə dövlət, millət tərəfindən belə bir təklifin gəlməsi, siyasətçinin özü, eyni zamanda dövləti, milləti üçün şərəf məsələsidir. Bu baxımdan Gürcüstan demokratları artıq ciyasi brend olublar. Bu əslində Gürcüstan dövləti üçün şərəfli bir haldır. Təbii ki, belə bir təklif olarsa, hər bir Azərbaycan demokrat buna şərəf məsələsi kimi baxmalıdır. Mənə belə bir təklif gələrsə, dəyərləndirərəm. Çünki hər hansı bir mübariz demokrati üçün təkcə öz ölkəsində deyil, bütün dünyada demokratiyanın, azadlığın, insan haqlarının qalib gəlməsi əsas prinsiplərdən biridir. Dünyamız bütövləşib. Siyasi maraqlar da bütövləşib. Azərbaycanın qonşuluğunda demokratiyanın inkişafı ölkəmizdə də buna şərait yaradır. Azərbaycanda bunun üçün beynəlxalq əlverişli şəraitə ehtiyac var. Belə şəraitin əsas amillərindən biri də qonşuluğunda olan dövlətlərdə demokratiyanın inkişafıdır".

❑ Cavanşir ABBASLI



## Azay Quliyev: "Bu qərar Azərbaycanın mövqeyini daha da möhkəmləndirəcək"

**"İyunun 16-da Avropa İnsan Haqları Məhkəməsinin Böyük Palatasının "Çıraqov və başqaları Ermənistana qarşı" şikayət ərizəsi üzrə çıxartdığı qərarı alqışlayıram". Bunu QHT Şurasının sədri, millət vəkili Azay Quliyev bildirib. O deyib:**

"10 illik mübarizədən sonra Avropa İnsan Haqları Məhkəməsi (AİHM) gözlədiyimiz ədalətli qərarı nəhayət ki, verdi. İlk dəfədir ki, AİHM rəsmi qərarı ilə Azərbaycanın ərazisinin, Laçının işğalı faktını tanımış və oradan zorla qovulmuş sakinlərin Avropa İnsan haqları konvensiyasının müxtəlif maddələri, xüsusilə mülkiyyətin və şəxsi həyatın toxunulmazlığı üzrə hüquqlarının pozulduğunu qeyd etmişdir. Bu qərarın çox böyük hüquqi və eyni zamanda siyasi əhəmiyyəti vardır. Belə ki, Avropa İnsan Hüquqları Məhkəməsi bu qərarla Ermənistanın Azərbaycanın ərazisinin bir hissəsini işğal etdiyini rəsmən təsdiq etmiş oldu. Heç şübhəsiz ki, bu qərar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin siyasi həllində Azərbaycanın mövqeyini daha da möhkəmləndirəcək. Belə bir ədalətli və obyektiv qərar çıxaran hakim heyətinə, xüsusilə Azərbaycan tərəfindən bu işin uğurla başa çatmasını böyük peşəkarlıq və səbrlə təmin edən komandaya, bir sözlə, zəhməti keçən hər kəsə dərin minnətdarlığımı bildirirəm".

## İsveçrə bankları şübhəli hesabları açıqlayır

**İsveçrə bankları dünya futbolunu idarə edən FİFA-nın bank hesabları ilə bağlı şübhəli fəaliyyətin müşahidə olunduğunu bildiriblər. Virtualaz.org saytı BBC-yə istinadən xəbər verir ki, bu barədə İsveçrənin baş prokuroru Mişel Lauber bildirib. M.Lauber korrupsiya işi üzrə araşdırma çərçivəsində FİFA-ya aid məlumatların təhlil edildiyini söyləyib.**

Baş prokuror işi ilə bağlı FİFA prezidenti Zepp Blatterin sorğu-suala tutulacağını istisna etməyib. İyunun 2-də 79 yaşlı Blatter FİFA konqresi tərəfindən bu təşkilatın prezidenti vəzifəsinə beşinci müddətə seçildikdən cəmi 2 gün keçmiş bəyan etdi ki, qurumun yeni rəhbəri seçilənədən sonra vəzifəsindən gedəcək. Araşdırma 2018 və 2022-ci illərdə dünya çempionatlarının keçirilməsi üzrə müsabiqənin yenidən təşkil edilməsi ilə nəticələnə bilər.

Ötən ay İsveçrənin Sürix şəhərində 7 yüksək rütbəli FİFA rəsmisi korrupsiya ilə bağlı ittihamlar əsasında saxlanılıb.

ABŞ Ədliyyə Departamenti hazırda fəaliyyət göstərən və istefaya çıxmış 14 FİFA rəsmisi ilə əməkdaşına qarşı "sistematik, geniş və dərin kök salmış" korrupsiya ilə bağlı ittihamlar irəli sürüb.

Məsələ ilə bağlı ABŞ Federal Təhqiqatlar Bürosunun araşdırması davam edir.

## Bu gün Müsavatla BŞİH-nin məhkəmə çəkişməsi başlayacaq

**Bu gün 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsində Müsavat Partiyasının Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) ilə bağlı etdiyi şikayətə baxılacaq. Müsavat Partiyasından verilən xəbərə görə, şikayətlə əlaqədar məhkəmənin hazırlıq iclası keçiriləcək.**

Müsavat Partiyasının Divanı bu məhkəmə prosesinin diqqətdə saxlanmasını müvafiq partiya strukturlarına tapşırıb.

Xatırladaq ki, BŞİH Müsavat Partiyasının aprelin 19-na planlaşdırdığı yürüşün keçirilməsinə razılıq verməyib. İcra hakimiyyəti partiyaya aprelin 19-da saat 15.00-dan 17.00-dək Yasamal rayon İdman-Sağlamlıq Kompleksinin stadionunda (keçmiş "Məhsul") mitinq keçirməyi təklif edib. Müsavat rəhbərliyi isə bununla razılaşmayıb və «sərbəst toplaşmaq azadlığı haqqında» Qanunun pozulduğunu əsas göstərərək məhkəməyə şikayət edib.

❑ E.SEYİDAĞA

## "Sədərək"də yanğın

**Bakı şəhəri, Qaradağ rayonunda yerləşən ticarət mərkəzində yanğın olub. Virtualaz.org Fövqəladə Hallar Nazirliyinin saytına istinadən xəbər verir ki, "Sədərək" ticarət mərkəzində vətəndaşa məxsus ümumi sahəsi 57 kv.m olan tikinti materialları mağazasının 3 kv.m divar üzlüyü və qarşısında 10 kv.m sahədə məişət tullantıları yanıb. Alov yanğınsöndürən bölmələri hadisə yerinə çatana qədər söndürülüb.**

## Hüquq müdafiəçisinin məhkəmə işində müəmmalı gediş

Taleh Xasməmmdovun məhkəməsi 1 aydır yubadılır; onun barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti başa çatsa da, yenidən istintaq təcridxanasına qaytarılıb

**İyunun 16-da Göyçay Rayon Məhkəməsində hakim Fərhad Əfəndiyevin sədrliyi ilə şərlənərək həbs olunan hüquq müdafiəçisi Taleh Xasməmmədovun məhkəmə iclası keçirilməli idi. Məhkəmə iclası saat 15:00-a təyin olunsa da, saat 16 radələrində Taleh Xasməmmədovun yaxınlarına bildirilib ki, proses yenə təxirə salınır.**


Taleh Xasməmmədov

Bu barədə müsavat.com-a məlumat verən T.Xasmməmədovun yaxınları qeyd etdilər ki, hakimdən nə baş verdiyini, prosesi niyə ikinci dəfədir yubatdığını soruşublar. Hakim heç bir izahat verməsə sadəcə olaraq iclasın təxirə salındığını deməklə kifayətlənib: "Taleh Xasməmmədovun məhkəmə prosesi iyunun 2-də keçirilməli idi. Həmin gün hakim prosesi heç bir səbəb göstərmədən iyunun 16-dək təxirə saldı. İyunun 16-da isə yenə də heç bir səbəb gətirilmədən məhkəmənin qeyri-müəyyən vaxta təxirə salındığını dedi. Məhkəmənin yubadılmasında hakimin hansı məqsəd güddüyü bəlli deyil, amma biz düşünürük ki, ola bilsin, Talehin ictimai-siyasi fəaliyyətindən narahatlıq keçirərək, hüquq müdafiəçisinin tutulmasını sifariş edən məmurlar prosesi yubatmaqla onun şərlənməsinin məhkəmədə Avropa Oyunları ərəfəsində ifşa edilməməsinə çalışırlar. Hazırda ölkəmizdə Avropa Oyunları keçirilir, bütün dünyanın gözü Bakıdadır. Görünür, hüquq müdafiəçisini şərləyərək həbs etdirənlər əməllərinin bu ərəfədə ifşa olunmasından ehtiyatlanırlar. Biz bir daha prezident İlham Əliyevə səslənərək, ondan xahiş edirik ki, hüquq müdafiəçisinin qanunsuz həbsini həyata keçirənlərlə bağlı ölçü götürsün, Taleh Xasməmmədovun azadlığa buraxılmasında bizə yardımçı olsun, ümidimiz yalnız onadır. Taleh ağır xəstədir, hər an xəstəxanada ölə, iki körpə balası başsız qala bilər".

İyunun 17-də isə T.Xasməmmədovu Göyçay RPŞ-dən Gəncə İstintaq Təcridxanasına apardılar. Yaxınları deyir ki, bu çox müəmmalıdır: "Onun barəsində seçilmiş həbs-qətimkan tədbiri mayın 27-də bitib. Hazırda tam qanunsuz olaraq həbsdə saxlanılır və məhkəməsi də məqsədli şəkildə yubadılır. Burada məqsəd nədir anlamırıq".

Xatırladaq ki, hüquq müdafiəçisi Taleh Xasməmmədov bu ilin 24 fevralında tutulub.

❑ M.MAHRIZLI



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Avropa Oyunlarından sonra...

## Siyavuş Novruzov iki partiyaya hakimiyyətin qəzəbini ifadə etdi

**YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov bildirib ki, bir sıra xarici qonaqların, dövlət başçılarının və hökumət rəhbərlərinin, tanınmış şəxslərin “Bakı 2015" I Avropa Oyunlarının təntənəli açılış mərasiminə gəlməsi bir daha onu göstərdi ki, Azərbaycan dünyada tanınan və inkişaf edən müstəqil dövlətdir. Odur ki, hər hansı xarici təşkilatın və nümayəndənin ölkəmiz haqqında nə deməsindən asılı olmayaraq, Azərbaycanın dünya siyasətində öz dəsti-xətti və yolu var.**

**S.Novruzov ”Bakı 2015" Birinci Avropa Oyunlarında müxalifət partiyaları funksionerlərinin də iştirakına münasibət bildirib:** “İlk Avropa Oyunlarında 2 müxalifət partiyasından savayı bütün siyasi partiyalar iştirak edir, bu oyunları yaxından dəstəkləyir və Azərbaycanın uğuruna sevinirlər. Avropa Oyunlarının açılışına sevinməyən bir neçə dövlət və təşkilat var idi ki, bunların arasında ən birinci Ermənistanın adını çəkmək olar. Təsəvvür edin ki, ilk Avropa Oyunlarına xaricdən Ermənistan və erməni lobbisi, daxildən isə 2 partiya sevinmirdi. Bu isə artıq faktdır ki, həmin qüvvələri qətiyyən Azərbaycanın uğurları maraqlandırmır. Bir daha əmin olduq ki, Azərbaycanın ümummilli məsələlərində və onun təbliğində, azərbaycanlıların həyata keçirdiyi böyük layihələrdə sözügedən partiyalar Azərbaycan xalqının yanında deyil. Onlar Azərbaycanı qərəzli şəkildə tənqid edən düşmən qüvvələrin yanındadır. Yəni Ermənistan dövlətinin və erməni lobbisinin yanındadır. Azərbaycanda fəaliyyət göstərən bəzi qeyri-hökumət təşkilatları var ki, onlar erməni pulu ilə maliyyələşir. Azərbaycanda xalqla iqtidar arasında güclü birlik var. Sevindirici haldır ki, 2 partiyanı çıxmaq şərti ilə, Avropa Oyunlarında Azərbaycan iqtidarı ilə müxalifət partiyaları bir oldular”.

S.Novruzov ad çəkməsə də “2 partiya” deyərkən Müsavatla AXCP-ni nəzərdə tutduğu şübhəsizdir. Çünki Müsavat Avropa Oyunlarının açılış mərasiminə qatılmamaq üçün Avropa liderlərinə müraciət edib, AXCP isə konkret çağırış etməsə də Avropa Oyunları əleyhinə təbliğat aparıb. Hakimiyyətin bu iki partiyaya qəzəbli olduğu S.Novruzovun yuxarıdakı açıqlamasından öncə siyasi partiyaların sədrlərinə Avropa Oyunlarının açılışı mərasiminə dəvət göndərilən müşahidə edilirdi. Müsavata və AXCP-yə dəvət göndərilmədiyi məlumdur.

S.Novruzovun iki partiyanı hətta düşmən qüvvələrin yanında olmaqda ittiham etməsi belə ehtimalları ortaya çıxarıb ki, Avropa Oyunlarından sonra o partiyalarla haqq-hesab çəkilə, onlara qarşı repressiya tətbiq edilə bilər.



**Bu barədə danışan Müsavat Partiyası İcra Aparatının rəhbəri Gülağa Aslanlı dedi ki, əvvəla, Müsavat Avropa Oyunlarını boykot çağırışı etməyib, açılış mərasiminə qatılmamaq üçün Avropa liderlərinə çağırış edib. İkincisi, Müsavat məlum çağırışı etməsinin hakimiyyətin ona qarşı repressiyaya başlayacağı ehtimalını yaradacağını da istisna etməyib:** “Müsavat Partiyası yaranan gündən mübarizə meydanında haqq sözünü deməyi özü üçün əsas götürüb. Bizim dahi öndərimiz Məhəmməd Əmin Rəsulzadə və onun tərəfdarlarının ən ağır şərtlər altında türmələrdə sınmadığı belə məlumdur. Müsavat Partiyasının indiki rəhbərliyində olan adamlar da Müsavatın ənənələrinə sadiq olan insanlardır. Müsavatın üzvü olan insanlar bu ənənəni qəbul edirlər. Ona görə də Müsavat Partiyası haqq bildiyini həyata keçirir. Hakimiyyət həmişə Müsavat üzvlərini onsuz da müxtəlif bəhanələrlə həbs ediblər, edirlər. Bundan sonra da həbs edə bilərlər. Gülağa Aslanlı olaraq deyirəm ki, qoy bizi haqq sözümüzə görə sonradan haqsız yerə həbs eləsinlər. Bu, bizi qorxutmur. Bizim nəslimiz, kökümüz ən ağır şərtlər altındakı həbsxanalarda sınmayan müsavatçılardan gəlir”.

**Açılış mərasimində iştirak etmiş partiya sədrlərindən ADP sədri Sərdar Cəlaloğlu isə hesab etmir ki, Avropa Oyunlarının açılışında iştirak etməmək çağırışı eləmiş qüvvələrə qarşı repressiya olacaq:** “Niyə repressiya olmalıdır ki? O da həmin qüvvələrin düşüncəsidir və mövqeyidir. Buna görə repressiya olmamalıdır. Avropa Oyunlarının açılışında Avropa liderlərinin iştirak etməməsi həmin çağırışlarla bağlı deyil. Avropanın özündən neçə dəfələrlə şərtlər qoyulmuşdu. Özü də bu şərtlər hakimiyyət üçün cüzi şərtlər idi. Hökumət nədənsə inadkarlıq nümayiş etdirdi. Nəticədə bu qədər dövlət vəsaiti qoyulmuş və möhtəşəm açılışı olan tədbirdə Avropa liderləri iştirak etmədi. Bu, Müsavatın çağırışı ilə bağlı deyildi. Müsavatın çağırışından xeyli əvvəl Azərbaycana çağırışlar Avropa təşkilatlarından və dövlətlərindən olmuşdu. Məncə, Avropa liderləri əslində insan hüquqları məsələsini Bakıya gəlməmək üçün bəhanə kimi istifadə etdilər. Problemlər əvvəl də var idi, lakin Angela Merkel İlham Əliyevi çox yüksək səviyyədə qəbul elədi, Fransua Olland Azərbaycana cəmi bir neçə həftə öncə gəlmişdi. Mənim qənaətimə görə, Vladimir Putinin Avropa Oyunlarının açılışında iştirakı Avropa liderlərini açılış mərasiminə gəlməməyə vadar etdi. Onlar jest etdilər, açılış mərasimində Putinlə bir sırada durmaq istəmədilər. Xatırlayırsınızsa, faşizm üzərində qələbənin 70 illiyində də Moskvada keçirilən parada Avropa liderləri gəlmədilər. Onlar bu addımlarla Putinin son illərdə apardığı siyasətə etirazlarını nümayiş etdirirlər. Mənə elə gəlir Azərbaycan hakimiyyəti də bunları nəzərə almalıdır və kimlərinsə Bakıya gəlməməsinə görə daxildə hansısa siyasi qüvvələri günahkar bilməməlidir”.

**AXP sədri Pənah Hüseyn isə bildirdi ki, onun fikrincə, iqtidar oyunlardan sonra Beynəlxalq Bankdan və digər yerlərdən oğurlanmış dövlətin pulları və oğurlarla məşğul olmalıdır:** “Repressiya isə cinayətdir, biz buna qarşıyıq və buna qarşı olacağıq”.

❑ E.SEYİDAĞA

# Müsavat başqanı Avropa İttifaqının tədbirində çıxış edib

## Arif Hacılı Aİ-ni Azərbaycanın problemlərini nəzərə almağa çağırıb

**Müsavat Partiyasının başqanı Arif Hacılı Avropa İttifaqının dəvəti ilə Brüsseldə Aİ-nin keçirdiyi “Liberal demokratik perspektivdə Şərq Tərəfdaşlığının gələcəyi” mövzusunda müzakirələrdə iştirak edib. Müsavat Partiyasından verilən xəbərə görə, iyunun 16-17-də keçirilən müzakirələrdə Arif Hacılı məruzə ilə çıxış edib. O, çıxışında “Liberal demokratik perspektivdə Şərq Tərəfdaşlığının gələcəyi” mövzusunda aparılan müzakirələri faydalı hesab etdiyini bildirib. A.Hacılı mövzu ilə əlaqədar olaraq Müsavatın mövqeyini çıxışında təqdim edib. O deyib: “Dövlətimizin və xalqımızın maraqları baxımından Azərbaycanın avrointeqrasiya siyasəti aparması zəruri və vacibdir. Avropa İttifaqı ilə Azərbaycanın əlaqələrinin uzun tarixi var.**



“Şərq Tərəfdaşlığı” Proqramı bu əlaqələrin vacib mərhələsidir. Bu proqram iştirakçı ölkələr arasında münasibətlərin daha yüksək səviyyəyə qaldırılmasını, mövcud əməkdaşlığın ikitərəfli və çoxtərəfli formatda davam etdirilərək genişləndirilməsini nəzərdə tutur. Belə ki, Avropa İttifaqı və hər bir tərəfdaş ölkə arasında daha sıx əlaqələrin yaradılması məqsədilə ikitərəfli format çərçivəsində mövcud tərəfdaşlıq və əməkdaşlıq sazişləri əvəzinə yeni, assosiasiya sazişlərinin imzalanması, tərəfdaş ölkənin Ümumdünya Ticarət Təşkilatına üzv olduğu təqdirdə, onunla dərin azad ticarət zonasının yaradılması, həmçinin vizaların tədricən liberallaşdırılması, tərəfdaş ölkələrin və Avropa İttifaqının enerji təhlükəsizliyinin gücləndirilməsi məqsədilə daha ciddi əməkdaşlığın həyata keçirilməsini nəzərdə tutur.

1991-ci ildə Azərbaycanın müstəqilliyinin bərpası zamanı qəbul edilən “Azərbaycanın Dövlət Müstəqilliyinin Bərpası Haqqında Konstitusiya Qanunu”nda elan olunduğu kimi, Azərbaycan öz inkişafını və milli təhlükəsizliyini avrointeqrasiyada görür. Bu baxımdan, Avropaya inteqrasiya siyasəti Azərbaycan Respublikasının xarici siyasətinin nəinki əsasını, tamamını ehtiva etməlidir".

**A.Hacılı sonra bildirib ki, Müsavat Azərbaycanın Avroatlantik məkana inteqrasiyası uğrunda mübarizə aparır:** “Ölkədə demokratik dəyərlərin təşəkkül tapması, fundamental azadlıqların bərqərar olunması, azad seçkilərin keçirilməsi, real hakimiyyət bölgüsünün aparılması, qanunsuz olaraq həbsdə saxlanılan siyasi məhbusların azadlığa çıxması, ölkədə bərabərhüquqlu siyasi rəqabət şəraitinin yaradılması, regionda demokratik inkişaf yolunda əsas əngəl olan Qarabağ probleminin ədalətli həlli bu yolla reallaşa bilər. Hesab edirik ki, Azərbaycan və Avropa bu sahədə səyləri daha da artırmalıdır. Azərbaycan hökuməti bu istiqamətdə siyasətini dəqiqləşdirməli, birmənalı və aktiv olaraq proqramda iştirakını davam etdirməli, Azərbaycanın gələcək inkişafı naminə bu təşəbbüsün tam hüquqlu tərəfinə çevrilməlidir. Bu prosesə Azərbaycanda olan əsas siyasi təşkilatlar və vətəndaş cəmiyyəti cəlb edilməlidir.

Təəssüf ki, Azərbaycanda indiki ictimai-siyasi vəziyyət bəyan edilən standartlardan uzaqdır. İndi Azərbaycan siyasi məhbusların sayına görə lider ölkədir. Azərbaycanda siyasi məhbusların sayı Rusiya və Belarusda olduğundan dəfələrlə çoxdur. 80-ə yaxın siyasi məhbusun ciddi bir qismi “Amnesty İnternational” təşkilatı tərəfindən “vicdan məhbusu” elan edilib".

**Müsavat başqanı bu il Azərbaycanda parlament seçkilərinin keçiriləcəyini xatırladıb. Sonra isə qeyd edib ki, ölkədə azad seçki və azad rəqabət mühitinin təmin edilməsi, seçki qanunvericiliyinin təkmilləşdirilməsi, ictimai etimada malik seçki komissiyalarının yaradılması və oradakı funksiyaların aparıcı ictimai-siyasi qüvvələr arasında paritet əsasında bölünməsi, kütləvi informasiya vasitələrinə basqılara son qoyulması, sərbəst toplaşmaq azadlığına əməl olunması, söz və fikir azadlığına qoyulan məhdudiyyətlərin aradan qaldırılması Müsavat Partiyasının mübarizəsinin prioritetlərini təşkil edir:** “Biz başa düşürük ki, demokratiyanın inkişafı daimi bir prosesdir. Biz bunu da bilirik ki, öz ölkəsində ümumbəşəri dəyərlərin bərqərar olması ilk növbədə hər bir xalqın, cəmiyyətin öz vəzifəsidir. Lakin biz Azərbaycan hakimiyyətinə izah etməyə çalışırıq ki, əvvəla, demokratiya və insan haqları heç bir ölkənin yalnız daxili məsələsi deyil. İkincisi, hər bir dövlət kimi Azərbaycan da daxil olduğu BMT, ATƏT, Avropa Şurası kimi təşkilatlar və əməkdaşlıq etdiyi Avropa Birliyi qarşısında üzərinə götürdüyü öhdəliklərə, siyasi sahədə bəyan etdikləri prioritetlərə əməl etməlidir. Biz hesab edirik ki, beynəlxalq birlik Azərbaycan kimi postsovet məkanında, mürəkkəb regionda yerləşən dövlətlərin problemlərini nəzərə almaqla yanaşı, öz öhdəliklərinə əməl etməli, bəşəri dəyərlərin bu məkanda yayılması üçün səylərini artırmalıdır. Bu baxımdan, qeyd olunan problemlərin həllində aparılan müzakirələrin mühüm rol oynayacağını, Avropa Şərq Tərəfdaşlığı Proqramının tam reallaşması üçün səylərin artırılmasına ciddi stimul verəcəyini düşünürük”.

**Müsavatın yaydığı xəbərdə deyilir ki, A.Hacılının çıxışı alqışlarla qarşılanıb.**

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 131 (6159) 18 iyun 2015



# İdman yaxşıdır, amma idmandan da vacib...

**Hüseynbala SƏLİMOV**

**Oyunların ilk günləri olsa da artıq ümidverici və hətta sevindirici nəticələr olduqca çoxdur. Təbii ki, hamımız sevinirik. Amma mən burada idman şərhçisi yerində olmaq istəməzdim, çünki hamının öz işi var. Məni oyunların açılışı günü bir detal özünə çox cəlb etdi... Söhbət nədən gedir?**

Hətta idman da mədəniyyətlə birgə, daha doğrusu, mədəniyyət çələnginə və mədəniyyət örtüyünə bükülərək təqdim edilir. Biz Nizamini təqdim etdik və böyük bəstəkarlarımızı təqdim etdik. Onlar olmasaydı nə edərdik?..

Bir maraqlı detal da oldu. Böyük bakılılar sırasında Lev Landaunun da adını çəkdilər. Bu, həm də ona görə yaxşı idi ki, Bakının necə bir multikultural şəhər olması haqqında təsəvvür yaranırdı...

Amma belə uğurlarımız o qədər də çox deyil, çünki elmin perspektivləri haqda o qədər də düşünmürük. Təsəvvür edin, Nobel laureatları arasında etnik azərbaycanlılar da olsaydı bu, nə qədər yaxşı olardı?..

Sözsüz ki, idman rifah deməkdir, böyük infrastruktur deməkdir. Amma yenə də idman idmandır. Təəssüf ki, elmlə bağlı belə təsəvvür yaranıb ki, guya elmin və alimin vətəni olmur. Amma belədirmi?

Təbii ki, yox. Hamı bilir ki, A.Eynşteyn yəhudi olub. Elə Landau da yəhudi olub. Alimin vətəni və milli mənsubiyyəti olmasaydı özbək və tacik qardaşlarımız ibn Sina uğrunda bu qədər mücadilə aparardılarmı? Elmin və alimin vətəni olmasaydı biz Nəsrəddin Tusinin də azərbaycanlı-türk olmasını sübut etmək üçün dəridən-qabıqdan çıxardıqmı?..

Əslinə qalanda alimlər kimi idmançılar da miqrasiya edir - harada daha böyük perspektiv varsa, lap açığını desək, harada daha çox pul verirlərsə, idmançılar da ora gedirlər...

Ona görə də elmə diqqəti artırmaq gərəkdir. Burada yadıma bir detal düşür. Bir-iki il bundan əvvəl alimlər müraciət etdilər ki, onlar üçün də ev tikilsin.

Amma onlara "yox" deyə cavab verdilər. Halbuki bir-iki yaşayış binası inşa etmək ölkə üçün heç nədir. Əgər biz bu qədər idman infrastrukturu, Olimpiya kəndi inşa edə biliriksə, nədən alimlər üçün ev tikməyək?..

Mən ixtisasca fizik, bir az da dəqiq desək, astrofizik olmuşam. Sonradan elə gətirdi ki, jurnalist oldum. Mən bunu da müəyyən mənada bir neçə il bundan əvvəl elmin və alimlərin yaşadıqları çətinliklərlə bağlayıram. Amma sözüm bunda deyil, görünür, mən bir az zəiflik nümayiş etdirmişəm, əslində mən də o vaxt başqa sahəyə istiqamətlənmək haqqında yox, həmin maneələri necə dəf etmək haqqında fikirləşməli idim. Amma olsun. Keçənə güzəşt deyərlər... Mən o vaxtlar bilirdim ki, hansı respublikada astrofizikanın hansı sahəsi inkişaf edib. Balaca bir respublikada - Estoniyada maraqlı kosmoloqlar qrupu vardı. Orada, Tartu universitetində Y.Lotman kimi ədəbiyyatşünas vardı...

Bütün bunlar ölkəyə gözəllik gətirir, onun çəkisini artırırdı. Belə misalları çox sadalamaq olar və onları sadalamaqla erudisiyamı nümayiş etdirmək fikrində deyiləm...

Amma başqa cür elmin aktuallığını necə sübut edə bilərəm? Bəlkə də bunun heç sübuta ehtiyacı da yoxdur. Çünki artıq 21-ci əsrdir. Və biz böyük ölkələrin idmanın sayəsində deyil, məhz elmin sayəsində yüksəlməsinin şahidiyik...

Bir az əvvəldə dedim ki, bəli, idmançılar kimi alimlər də transfer olunur. Niyə biz dünyanın böyük alimlərini ölkəyə mühazirələr oxumaq üçün dəvət etməyək? Məgər Yaponiya və Çin belə dirçəlmədimi?..

Sadəcə, düşünürəm ki, burada bir psixoloji məqam da az rol oynamır. İdman daha sürətli nəticələr verir, burada çox gözləməyə ehtiyac olmur - bəli, beş-on dəqiqəlik yarış və budur, ölkənin bayrağı ya qalxır, ya da qalxmır!..

Elm belə sürətli nəticələrə hesablanmayıb. Amma o, da bir mərhələni - məktəbə çevrilmək mərhələsini keçəndən sonra artıq nəticələr də davamlı olmağa başlayır...

İndi dünyanın elmi mərkəzləri ilə əlaqə yaratmaq elə də çətin deyil. Əvvəllər bunun üçün nə qədər maneə dəf etmək lazım idi! İndi hər şey daha sadədir və yetər ki, bu proqramlara vəsait ayırsınlar...

Elə idmanda da nəticələrin davamlılığı az aktual deyil. Transfer edilmiş idman adamlarının hesabına ölkədə idman məktəblərinin yaranmasına cəhd etmək olar. O vaxt deyəcəklər ki, məsələn, Azərbaycanda da güclü güləş və yaxud da ki, güclü gimnastika məktəbi var. Necə ki, bir vaxt deyirdilər ki, burada güclü neft elmləri məktəbi var...

# "Əli Kərimli bu savaşın qızışmasını istəyir"

## Rauf Arifoğlu: "Bundan sonra da qəzetə, şəxsimə yönəlik təhqir və əsassız böhtanlar cavablandırılacaq"

**"Bundan sonra da qəzetə, şəxsimə yönəlik təhqir və əsassız böhtanlar cavablandırılacaq. Müsavat Partiyası haqqında heç nə deyə bilmərəm, partiyanın öz seçimi var. Əli Kərimli və Cəmil Həsənliyə qarşı savaşda mənim heç bir xüsusi dəstəyə ehtiyacım yoxdur, tam əksinə, bu bir söz və informasiya savaşı olduğu üçün partiyanın mənim dəstəyimə ehtiyacı var. Bu imkanlar məndə daha genişdir".**

**Bu sözləri APA-ya açıqlamasında "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu deyib. O bildirib ki, Milli Şuranın sədri Cəmil Həsənli və AXCP sədri Əli Kərimlinin sosial şəbəkədə saxta profillərlə təşkilatlanmış qrupu var:** "Ancaq qəzetimizin tirajı bu adamların hamısının bir yerdə "layk"larından dəfələrlə yuxarıdır. Bu baxımdan narahatlığa və dəstəyə ehtiyac yoxdur".

**R.Arifoğlu rəhbəri olduğu qəzetdə Milli Şura haqqında yayılan məlumatların əsaslı olduğunu vurğulayıb:** "Bizim yazılarımızın hər biri doğru və dəqiqdir. Bu məlumatlar normal siyasi mühitdə Cəmil Həsənli və onun tipində liderlərin siyasi həyatının bitməsinə səbəb olardı. Bu informasiyalarda nöqtə və zərbələr o qədər dəqiqdir ki, buna reaksiyalar da aqressiv olur. Çünki Cəmil Həsənli hakimiyyətə bağlı informasiya orqanlarında hər gün tənqid olunur, ancaq onların heç birinə reaksiya vermir. Yalnız "Yeni Müsavat" qəzeti yazanda buna çox kəskin reaksiyalar verir. Bunun da səbəbi, dediyim kimi, nöqtə zərbələridir".



**Baş redaktor qeyd edib ki, C. Həsənliyə bu məsələdə informasiya dəstəyini və siyasi dəstəyi AXCP sədri verir:** "O istəyir ki, bu dava qızışsın. Bunun da səbəbi bəllidir. Çünki biz artıq müəyyən fasilələrlə 20 ilə yaxındır ki, Əli Kərimli ilə savaşırıq. Əvvəllər biz onu hakimiyyətə işləməkdə və düşərgəsini dəyişdirməkdə ittiham edirdik. İndi də eyni ittihamları müəyyən müddətdən sonra bizə qaytarır. Yəni Əli Kərimli ilə münasibətlərimizdə dəyişən bir şey yoxdur. Sadəcə olaraq, bir zamanlar onun mövqeyində dayanıb bizə atəş açanlar, indi onun yanında yoxdurlar, yeniləri gəlib. Cəmil Həsənli də üçüncü dəfə onun yanına qayıdıb. Proses davam edir, onlar da əsas missiyalarını unudublar. Hakimiyyətə gəlmək, parlamentə seçilmək, siyasi mübarizə aparmaq, mitinqlər təşkil etmək əvəzinə, bütün güclərini bir qəzetlə savaşa sərf ediblər".

# Türkiyədə "deputat transferi" iddialarında Azərbaycan izi

## AKP-nin təkbaşına hökumət qurması üçün lazım olan 18 deputatın başqa partiyalardan pulla alınacağına dair sensasion iddia var

**Türkiyədə parlament seçkilərindən sonra AKP-nin təkbaşına hökumət qurmaq şansını itirməsi yeni siyasi dialoq və müzakirələrə səbəb olub. 7 iyun seçkilərinin nəticələrinə əsasən 258 deputat yeri əldə edən hakim AKP indi təkbaşına hökumət qurması üçün 18 deputata (Türkiyə parlamentində 550 deputat yeri var, hökumət qurmaq üçün deputatların yarısından çoxu, yəni 276-sının səsinə ehtiyac var - K.) ehtiyacı var. Ümumilikdə isə hakim partiya hökumət qurmaq və konstitusiya dəyişikliyini həyata keçirə biləcək qədər mandata sahib olması üçün koalisiyaya getməlidir.**

Hazırda Türkiyədə parlamentdə təmsilçilik hüququ qazanmış 4 partiya daxilində koalisiya imkanları müzakirə edilir. Müşahidəçilərə görə, böyük ehtimalla iyunun 19-da keçiriləcək millət vəkillərinin andiçmə mərasimindən sonra koalisiya danışıqları rəsmiləşəcək və böyük ehtimalla reallaşacaq. Ancaq hələlik partiyalar daxilində koalisiya imkanları və şərtləri müzakirə olunur. Bu arada isə Türkiyə müxalifət partiyasından gözlənilməz iddia ortaya atılıb.

İddiaya görə, hakim AKP təkbaşına hökumət qura bilmək üçün lazım olan 18 deputatı partiyaya digər təşkilatlardan transfer edəcək. Mətbuatın iddialarına görə, hakimiyyətin planına əsasən hökumət qurmaq üçün lazım olan 18 deputat pulla alınacaq və onlar hazırda təmsil olunduqları partiyalardan çıxaraq AKP-yə keçəcəklər.

Bu iddianın müəlliflərindən biri, müxalifətdə olan CHP-nin baş katibi Gürsel Təkin "Sözçü" qəzetinə açıqlamasında bildirib ki, AKP transferi həyata keçirmək üçün gizli danışıqlar aparır və bu məqsədlə 30-40 milyon dollar arasında pul ayrılıb. Ancaq bu iddianın ən qəribə tərəfi bu işdə Azərbaycanın adının keçməsidir. Belə ki, G.Təkin bildirib ki, "deputat transferi" lazım olan pulu Qətər və Azərbaycandakı türk iş adamları ayırıb və pullar artıq hazırdır.

Türkiyənin müxalif mediasının yazdığına görə, artıq hakimiyyət transfer olunması mümkün olan deputatları araşdırmaq üçün hərəkətə keçib. Bildirilir ki, prezident Ərdoğanın tapşırığı ilə Türkiyə xüsusi xidmət orqanları seçilmiş millət vəkillərinin gizli dosyesini hazırlayır. Bu dosyeyə əsasən transferə uyğun olanlar müəyyən ediləcək və onlarla bazarlıq aparılacaq.

Ancaq media və müxalif siyasilərin ortaya atdığı bu iddialar birmənalı qarşılanmayıb. Türkiyənin nüfuzlu media orqanları bu iddiaların doğrulanması üçün sübut sayıla biləcək sənədlərin ortaya qoyulmasını təklif ediblər. Doğrudur, seçkilərin hazırkı nəticələri heç bir halda AKP-nin, xüsusən də yeni seçkilərdən sonra böyük siyasi dəyişikliklərə hazırlaşan prezident Ərdoğanın maraqlarına cavab vermir. Çünki Ərdoğan böyük siyasi dəyişikliklərə hazırlaşırdı və onun üçün AKP-nin əzici çoxluğa sahib olduğu parlament lazım idi. Amma seçkinin nəticələri hətta təkbaşına hökumət qurmağa imkan vermir və aydın məsələdir ki, koalisiya hökuməti AKP-nin bir sıra planlarından imtina etməsinə səbəb olacaq.



**Arzu Nağıyev:** "Bu məsələdə Azərbaycanın adının hallanması ölkəmizə qarşı heç bir məntiqə arxalanmayan boş bir iddiadır"

Lakin ortaya atılan iddianın özü də xeyli dərəcədə fantastik görünür. Çünki söhbət 5-10 deyil, ən azı 18 nəfərdən gedir. Birdən-birə bu qədər deputatın AKP-yə keçməsi istər-istəməz bu işin içində saxtakarlıq və plan olduğunu aşkara çıxarır. Ankaranın belə bir addıma getməsi xeyli dərəcədə riskli görünərdi.

**Siyasi şərhçi, "Trend" İnformasiya Agentliyinin direktor müavini Arzu Nağıyev bu iddianı real hesab etmir. Ekspertin fikrincə, Türkiyənin indiki hakimiyyətinin bu qədər açıq və bəsit saxtakarlığa getməsi real deyil:** "Mən bu iddialara inanmıram. Çünki bu, Türkiyənin daxili işidir və əlbəttə, regional baxımdan siyasi, iqtisadi və digər məsələlərdə Türkiyə bizim ən yaxın tərəfdaşımızdır. Lakin istənilən halda bu gün orada hansı partiyanın hökuməti formalaşdıracağı onların öz işləridir. 18 deputatla bağlı iddialarda Azərbaycanın adının hallanması ölkəmizə qarşı heç bir məntiqə arxalanmayan boş bir iddiadır".

**A.Nağıyevin fikrincə, Türkiyədə hökumətin formalaşdırılması müzakirələri uzandıqca partiyaların bu cür iddialar ortaya atması faktları çoxalacaq:** "CHP-nin hansı dəyərlərə xidmət etdiyi də məlumdur və bu gün artıq özünü qabarıq şəkildə büruzə verir. Hazırda koalisiya danışıqları davam edir və hələ ki müsbət nəticə yoxdur. Partiyaların koalisiya imkanları, xüsusən də CHP-nin hökumət qurma tələbləri reallaşmır. Erkən seçkilərin isə ən gözlənilməz hadisəsi o ola bilər ki, nə AKP, nə də CHP tam üstünlük əldə edə bilməsin. Bunu isə istər iqtidar partiyası, istər də CHP və onun rəhbərləri gözəl başa düşür və ona görə də bu addımı atmaqdan çəkinirlər. Buna görə də özlərini sığortalamaq üçün müxtəlif siyasi gedişlər edirlər, bəyanatlar verirlər. Ancaq inanmıram ki, AKP buna getmək istəsin. İstənilən halda ilkin dövr üçün AKP siyasi partiyalardan hansı biri iləsə koalisiyaya getməli olacaq".

❑ **KƏNAN**

Yeni Müsavat
N 131 (6159) 18 iyun 2015

## Abid Şərifov kimlərə hansı mesajı göndərib?

**Mayın 19-da 15 nəfərin ölümünə, 56 nəfərin isə xəsarət almasına səbəb olan dəhşətli yanğından bir ay ötür.**



# Dəhşətli yanğının bir ayı: yeni sensasion məlumatlar

### Həbs edilənlər iş üzrə şikayət verməyiblər; General qardaşının həbsini soyuqqanlı qarşılayıb; Avropa Oyunlarından dərhal sonra bu işlə bağlı bir neçə iri məmurun da işdən çıxarılacağı deyilir - onların sırasında iki icra başçısı da var

Yanğınla əlaqədar poliuretan məmulatını istehsal edən “Qlobal Stone” MMC-nin baş direktoru Uğur Bəşirov, “Global Construction” MMC-nin sədr müavini Ələkbər Əsgərov, 2012-2013-cü illərdə Binəqədi rayon mənzil-kommunal təsərrüfat birliyinin rəisi işləmiş rayon icra hakimiyyətinin təsərrüfat şöbəsinin müdiri Ədalət Rəcəbov və Binəqədi rayonu, 72 saylı mənzil-kommunal istismar sahəsinin rəisi Nizami Orucov Cinayət Məcəlləsinin 225.2-ci (ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və digər ağır nəticələrə səbəb olan yanğın təhlükəsizliyi qaydalarını pozma) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarları ilə 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib. Bundan sonra daha bir sensasion həbs gerçəkləşdi. Belə ki, 2012-2013-cü illərdə Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini işləmiş Qəzənfər Novruzov tutuldu. Onun barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçildi. Qəzənfər Novruzov Naxçıvan Muxtar Respublikasının daxili işlər nazirinin müavini, general-mayor Səbuhi Novruzovun qardaşıdır. Səbuhi Novruzov isə Naxçıvan Ali Məclisinin sədri Vasif Talıbovun bacısının həyat yoldaşıdır. Q. Novruzovun digər bir qardaşı Bakı Şəhər Yaşıllaşdırma İdarəsinin rəisidir.

Xətaidəki poliuretan üzlüklə binanı üzləmiş “TNH” səlahiyyətlisi Fərid Sadıqov, şirkətin direktoru Zaur Əşrəfov, şirkət direktorunun tikinti işləri üzrə müavini Nüsrət Muxtarov da saxlanaraq barələrində həbs-qətimkan tədbiri seçilib. Binəqədidə və Xətaidə binalarda baş verən yanğınlarla bağlı işlər eyni icraatda birləşdirilərək Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İşlər üzrə İstintaq İdarəsində araşdırılır.

Baş Prokurorluq bildirib ki, istintaq davam edir və hadisənin baş verməsində təqsiri olan digər vəzifəli şəxslərin tam dairəsinin müəyyənləşdirilərək onların məsuliyyətə cəlb olunması istiqamətində istintaq əməliyyat tədbirləri aparılır.

Binəqədidəki yanğından sonra ölkə başçısının tapşırığı ilə bütün ölkə boyu yanğına davamsız materialla üzlənmiş binaların üzlüyü sürətlə sökülüb və yenilənib.

İstintaqa yaxın mənbələrdən aldığımız xəbərə görə, bu məsələ Avropa Oyunları ilə bağlı nisbətən arxa plana keçsə də, araşdırmalar davam edir. İş üzrə həbs edilənlər Bakı İstintaq Təcridxanasında saxlanılırlar. Maraqlıdır ki, iş üzrə saxlanılanların heç biri həbs-qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı apelyasiya şikayəti verməyib. Görünür, bu şikayətin təmin olunmayacağını əvvəldən bildikləri üçün bu addımı atmayıblar. Generalın qardaşına gəlincə, məlumatlara görə, Novruzovlar bu həbsi soyuqqanlı qarşılayıblar. Çünki Q.Novruzovun bu iş üzrə olmasa da, həbs ediləcəyi gözlənilən idi, hətta onun axtarışda olduğu barədə də məlumat vardı. İstintaqa yaxın mənbəmizin iddiasına görə, V.Talıbov da özünü bu həbs məsələsindən kənarda saxlayıb və demək olar ki, bu işlə maraqlanmır. Q.Novruzova vəkil tutulsa da, onun adı da hələ ki mediaya açıqlanmır.

Mənbəmiz deyib ki, Avropa Oyunlarından dərhal sonra prezident İlham Əliyevin yanğınla bağlı Dövlət Komissiyasının növbəti iclasını keçirəcəyi *(Avropa Oyunlarının bağlanışı həlak olanların 40 mərasimi ərəfəsinə təsadüf edəcək)* gözlənilir. Dövlət Komissiyası təkcə Binəqədidə deyil, həmçinin Xətaidəki yanğınla bağlı da tam hesabat hazırlayıb prezidentə təqdim etməlidir.

Qaynağımız deyib ki, Dövlət Komissiyası hər iki binanın niyə və nədən yanması ilə bağlı dəqiq məlumat verməli, bu işdə məsuliyyətsizlik edən bütün dövlət qurumlarının adını çəkməlidir. Çünki dövlət başçısı komissiyanın iclasında “hamı məsuliyyəti bir-birinin üzərinə atmaq istəyir” deyərək hüquq-mühafizə orqanlarından ciddi araşdırma tələb edib. Bu səbəbdən də komissiyanın sədri Abid Şərifov “heç kimin məsuliyyətini üzərimə götürən deyiləm” kimi mesaj göndərib və faktiki bir neçə məmuru çətin sınaq gözlədiyinə işarə edib. Hər halda, istintaqdan gələn xəbərlər Avropa Oyunlarından dərhal sonra bu işlə bağlı bir neçə iri məmurun işdən çıxarılacağını göstərir. Onların sırasında Xətainin icra başçısı Razim Məmmədovun da adı var. Məlumata görə, Xətaidəki yanmış bina ilə bağlı gözlənilməz həbslər icra başçısını çıxılmaz vəziyyətə salıb. Həbs edilənlər isə məsuliyyəti Xətai İcra Hakimiyyətinin yetkililərində görürlər. Bu səbəbdən də icra başçısının istintaqda ifadəsi alınıb. Son günlər Xətai İcra Hakimiyyətində də icra başçısının işdən çıxarılacağı barədə məlumatlar dolaşır.

Bu arada daha bir yanğın hadisəsinin Sumqayıtın icra başçısı Eldar Əzizovun karyerasına təhlükə yaratdığı barədə məlumatlar da diqqətçəkəndir. Məlumatlara görə, Sumqayıtda mərhum prezident Heydər Əliyevin poliuretan üzlüklə üzlənmiş portretinin yanmasına görə Eldar Əzizov hədəfə gəlib (istiqlal.az). Məlumatda bildirilir ki, hadisədən bir neçə gün sonra icra başçısı Prezident Administrasiyasına çağırılıb. Eldar Əzizov olaya görə sərt şəkildə danlanıb. Ona vəzifəsinin öhdəsindən gələ bilməməsi və buna görə işdən çıxarıla biləcəyi barədə xəbərdarlıq edilib. Bildirilir ki, hadisə ilə bağlı Prezident Administrasiyasına ötürülən məlumatda Eldar Əzizovla bağlı digər neqativ qeydlər yer alıb. Bundan xəbər tutan icra başçısı yanğın hadisəsini özünə təxribat kimi qiymətləndirib. Bildirilir ki, Eldar Əzizov yaxın çevrəsinə Sumqayıt İcra Hakimiyyətində onunla bağlı “yuxarılar”a donos ötürənlərin olduğunu bildirib.

İddiaya görə, son vaxtlar Eldar Əzizov hakimiyyətin təbliğatı işində xeyli passivləşib və bu da onun adının “qara siyahı” da olması ilə bağlıdır...

❑ **“Yeni Müsavat”**

# Axirət üçün ən pis azuqə



**Zahid SƏFƏROĞLU**
zsafaroglu@gmail.com

**Mübarək, gözəl bir aydayıq. “11 ayın sultanı” Ramazana daxil olmuşuq. Kaş ki, hamılıqla bu ruhani yeniliyin fərqində olaq. Ələlxüsus da biriləri heç olmasa, bu ayda kənardan özünə tənqidi yanaşsa, təkəbbür, özündənrazılıq kimi Allaha naxoş gedən xüsusiyyətlərdən qurtulmağa cəhd eləsə, Yaradana da xoş gedər, özləri də bəlkə hidayət yoluna çıxalar.**

O sırada şeytani əməllərə vərdiş edənlər kaş ki, heç olmasa, bu ayda bəd işlərinə moratorium qoyalar, dil zinasından bir aylığına pəhriz saxlayalar, özəlliklə də qəzetimizə, onun rəhbərliyi və kollektivinə imansızcasına qara yaxmayalar, şər-iftira atmayalar, “Yeni Müsavat”ı “Səs”lə eyniləşdirməyələr, bir vaxt onlara etdiyimiz təmənnasız yaxşılıqlara bizi peşman etməyələr. Axı bu ayda şeytanlar da zəncirlənmiş olur.

Nöqsansız, günahsız bəndə olmur - burası bəlli. Sadəcə, birininki az, digərininki çox ola bilər, deyirlər. Günahı yumağın, yandırmağın yolu da bəlli - savab əməllər, xeyirxah işlər, humanist addımlar, şəfqət, mərhəmət göstəriləri.

Bu xüsusda hakimiyyətdəkilərin yandırmalı olduğu günahlar əlbəttə ki, daha çoxdur. Keşkə, mübarək Ramazan ayında onlar bu ayın fəzilətlərini dərk edib də heç olmasa, günahsız insanları azad edəydilər.

***

Öyüd vermirik, amma mənim aləmimdə cəmiyyət üçün, ümmət üçün ən təhlükəli, eyni zamanda bədbəxt adamlar o kəslərdir ki, Ramazan ayını da digər aylar tək qarşılayıb yola salırlar. Yeni etdikləri günahlara mübarək ayda da etina eləməz, axirətləri haqda əsla düşünməzlər.

Ən gözəl, xeyirxah, cəmiyyətə ən lazımlı insanlar da yenə məhz Ramazan ayını yerdə qalan aylar kimi qarşılayıb yolla salanlar - iman adamlarıdır. Çünki nəinki mübarək 30 günlükdə, ümumiyyətlə, ilin heç bir günündə onlar günaha batmaz, yalnız savab işlər, ehsanatlar, yaxşılıqlar edərlər, bu dünyaya axirət yolunda müvəqqəti mərhələ, dayanacaq, imtahan kimi baxarlar.

Onlar təqvalılardır sözsüz ki. Yanılmırıqsa, müqəddəs Qurani-Kərimdə bununla bağlı ayə də var. Allah-təala buyurub: “Sizlərdən Mənə ən yaxın olanı - ən təqvalı olanınızdır”. Təqva - yəni Allahın bəyəndiyi əməllərə can atmaq, bəyənmədiklərindən çəkinmək. Kəsəsi, təqvalı olmaq - günah işlətməmək, Yaradanın buyurduğu kimi yaşamaqdır. Təkcə mübarək Ramazanda yox, bütün il boyu! Həzrəti Əli (ə) buyurur ki, “Bəndə üçün günah etmədiyi gün - bayramdır”.

***

Elə isə vay o kəslərin halına ki, Ramazanda, mərhəmət və şəfqət ayında da zülmdən, pislikdən, namərdlik etməkdən qalmaya, şər atmaqdan, əzab verməkdən yorulmaya, ev yıxmaqdan, haram yeməkdən əl götürməyə və bütün bu antibəşəri əməllərindən zövq ala! Onlar axirət üçün azuqələrini pisliklərdən tutanlardır. Onlar Ramazan ayını özləri üçün matəm hesab edə bilərlər. Hərçənd bunun fərqində olmazlar.

Məsələ də ondadır ki, tək müsəlman dünyası deyil, bütöv bəşəriyyət, ən əvvəl də dövlətləri, məmləkətləri idarə edib yönəldənlər Ramazandakı kimi ilin bütün başqa aylarında da öz məsuliyyətini dərk eləsə, tox acın dərdini anlasa və ona hayan olsa, varlılar kasıbı, məzlumu da fikirləşsə, zalım zülmdən və hakimiyyət hərisliyindən əl çəkməyin ilahi fəzilətini anlasa, haram yeyənlər tövbə edib də halal yola dönsə, yetim malına heç kim toxunmasa, dünyada bunca haqsızlıq, qan-qada, müharibə də olmaz, zülm ərşə dirənməz...

***

Daha bir Ramazan fürsətini qaçırmayaq və hər günümüzü bayram kimi *(günahsızlıq içində)* yaşamağa səy edək!


Birlikdə.
Avropanı evimizdə salamlayırıq.
İlham Zəkiyev,
Cüdo – 100kq-dan
yuxarı çəki dərəcəsi
bp
Baku 2015
1st EUROPEAN GAMES
Rəsmi Tərəfdaş
Azərbaycanın 20 ildən artıq sadiq tərəfdaşı kimi Bakı 2015 Avropa Oyunlarına qatılmağımızın həyəcanını yaşayırıq. Biz məşhur Azərbaycan olimpiyaçıları və paralimpiyaçılarına sponsorluq edir, həm də onlar üçün elit idman təlimlərini təmin edirik. Ölkənin dünya səviyyəli tədbirlər keçirmək potensialını yüksəldəcək Bakı 2015 Avropa Oyunları Akademiyasına da dəstək veririk.
BP və Azərbaycan – birlikdə Oyunlar və gələcək naminə.
Daha ətraflı məlumat üçün: bp.com/baku2015

**Cəmil Həsənli guya bizə cavab verib. Amma dolayısı ilə yazdıqlarımızı təsdiqləyib. Uzun-uzadı bir tekst yazıb ki, bəs "Yeni Müsavat"ın 13 iyun 2015-ci il tarixli sayında getmiş manşet yazısı ("Milli Şura Putinin "molodes"ini qazana bildimi") hakimiyyət tərəfindən qəzetə ötürülüb. Guya hökumət "Yeni Müsavat"a tapşırıb ki, Milli Şura adlanan qurumu və Cəmil müəllimi gözdən salaq.**

**Azər AYXAN**



# Fakturaları kəsilənlər...

Hər şeyə şübhə ilə baxmaq, hər yazını iqtidarın sifarişi kimi təqdim etmək, bütün proseslərdə alt məna axtarmaq, "iqtidarın sifarişidir" deyib qaralamaq ciddi psixoloji problemlərdən xəbər verir. Qınamırıq, bu adamlar siyasi ömürləri boyu hakimiyyətdən gizli sifariş alıb mənsub olduqları düşərgədə təfriqə salmaqla, satqınlıqla məşğul olublar. Bunlar hamısı o qədər də uzaq tarixdə baş verən olaylar deyil - hamı hər kəsi yaxşı bilir, yaxşı tanıyır. İndi də başqa paytaxtlardan, başqa dövlətlərdən sifariş alıb ölkəni, Azərbaycanı qarışdırmaq istəyirlər. Öz aləmlərində böyük oynayırlar. Amma fərqində deyillər ki, ölkənin, dövlətin taleyi ilə oynayırlar...

Cəmil Həsənli facebook səhifəsində "Yeni Müsavat"ın yazdığı həmin manşet yazısına cavab verib. Deyib ki, biz bu yazının sifarişini Prezident Administrasiyasından almışıq. Amma müəllim fərqində deyil ki, həmin manşet yazısı hakimiyyətə sərf edən məqalə deyil. Yazı Avropa Oyunlarının niyə MŞ tərəfindən boykot olunmaması sualı üzərində qurulub. Bu da iqtidarın hazırkı kursuna qətiyyən uyğun deyil mövzu olaraq. Hakimiyyət niyə özünə sərf etməyən tezisi, sualı ictimailəşdirsin ki?

İkincisi və ən əsası, Cəmil müəllim az qala hər şeydən danışıb bizə "cavabında", fəqət əsas və vacib suala cavab verə bilməyib. Həmin sual da bu cürdür: Milli Şura nə üçün Avropa Oyunlarını boykota çağıran bəyanat verməkdən yayındı? Bu fürsəti nədən, hansı məntiqlə əldən verdi, iqtidara bu güzəştin arxasındakı səbəb nə ola bilər?

Başqa suallar da var. Məsələn, hörmətli professor izah etsin ki, 2002-ci və 2005-ci illərdə niyə AXCP-ni, həmçinin sədri Əli Kərimlini satıb Milli Məclisə getdi? Baxmayaraq, hər iki halda partiyasının qəti qərarı vardı ki, Xalq Cəbhəsindən olan deputatlar parlamentə getməsin.

Professor bu suallara babat cavab versə, məmnuniyyətlə o cavabı qəzetin ən yaxşı səhifəsində çap edərik.

***

Azərbaycanın müxalifət siyasətçilərinin içində xeyli nankoru var. Bunu çəkinmədən yazıram. Onların da başında "Yurd"çular gəlir. İllərlə xidmət göstərirsən, dəstək verirsən, işini, biznesini, kollektivini riskə atıb bunları müdafiə edirsən, amma axırda səni ya satqın adlandırırlar, ya da çamur atıb ləkələmək istəyirlər. Əslində özləri çamurun, çirkabın içindədirlər xirtdəyəcən. Cəmil Həsənli "Yeni Müsavat" qəzetini "Səs"lə və digər iqtidar qəzetləri ilə müqayisə edib. Tipik nankorluqdu, allahsızlıqdı. Mən professor elmi rütbəsi daşıyan bu adama təklif edirəm, 2013-cü ildə dərc olunan "Yeni Müsavat"ı da vərəqləsin, "Səs" və digər iqtidar qəzetlərinin də "podşivka"sına baxsın. Bu zaman özü öz nankorluğuna heyrət edəcək. Biz son prezident seçkisində Cəmil Həsənlini ölümünə müdafiə etmişik, onun üzərinə hakimiyyət tərəfindən yönələn bütün ittihamlara cavab vermişik. Qəzetin rəhbərliyinə daxil olan şəxslər öz imzaları ilə köşələr yazıb onu iqtidarın söyüş-təhqirindən müdafiə edib. Onun seçicilərlə mitinqlərini, görüşlərini musavat.com saytında əksər vaxt canlı yaymışıq. İqtidar mətbuatı isə Cəmil Həsənlinin özünü, ailəsini təftiş və təhqir edirdi, onun qızının ingilisə ərə getməsi haqda silsilə məqalələr yazırdı. İndi durub "Yeni Müsavat"ı iqtidara işləməkdə suçlayır. Nə edək, bizim də qəzetçi taleyimiz bu cür gətirib - kimə dəstək veririk, kimi adam yerinə qoyub sayğı göstəririk, əvəzini bu cür alırıq.

Bu həm də bizim üçün bir dərsdir - həyat dərsi, peşə dərsi... Nəzərə alacağıq, nəzərə alırıq. Biz "Səs" qəzetiyiksə, "Yeni Azərbaycan"ıqsa, Cəmil Həsənli də Hafiz Hacıyevdi. Onun stilistikasında, onun jarqonunda, onun siyasi ləhcəsində danışmağa başlayıb son vaxtlar. Görünür, 2013-də efirdəki təmasları professoru ciddi etkiləyib - Hafizi təqlid etməyə başlayıb. Etsin, nolar. Amma biz zamanında bu gün C.Həsənlini tırkalayıb üstümüzə salan Əli Kərimlini də Hafizdən, onun təhqirlərindən müdafiə etmişik. Amma zaman keçdikcə görmüşük Ə.Kərimlidə də Hafizləşmə gedir. Bunlar da bu cür naxoşdurlar - bir vaxtlar hakimiyyətlərini devirib bunları siyasətdən qovanlara oxşamağa başladılar zaman keçdikcə, Milli Məclisdə bunları rəngləyib buraxan deputat kimi danışmağa həvəsləndilər, bunları efirdən rəngdən-rəngə salan saxta partiyanın sədrinin tərzində bizi söyməyə, söydürməyə maraq göstərdilər.

Siyasi süqutun son mərhələsini yaşayan bu adamlar şəxsi və ümumi planda düçar olduqları məğlubiyyətin, uğursuzluğun qisasını alırlar sanki bizdən. Hakimiyyəti buraxıb qəzetlərlə, jurnalistlərlə dava etmək nə zamandan müxalifətçilik oldu?

Təsəvvür edin, deyirlər ki, xalqın böyük hissəsi hazırkı iqtidardan narazıdı, fəqət bu xalq Milli Şura adlanan saxta qurumun mitinqinə qatılmır. Nəinki xalq, heç öz tərəfdarları, AXCP üzvü olanlar belə o mitinqlərə getmirlər. Min nəfəri ətraflarına yığmağı bacarmırlar, amma hər gün on minlərlə, yüz minlərlə oxucunu, azərbaycanlını bir araya gətirən Rauf Arifoğluna dil uzadırlar, ona olmazın ittihamlar yağdırırlar. Xalq hər şeyi, hamını görür, müşahidə edir. Yalandan özlərini "Yeganə, əsl müxalifət" adlandırmaqla deyil ki. Bir işarə ilə soyundular yeganə libaslarını. Bunlarınkı kol dibi görənə kimidi...

***

**1993-cü ilin bu günlərində ölkəni, dövləti, xalqı, silahdaşlarını ortalıqda buraxanların, siyasi fərarilərin bəzilərini başımıza aslan kəsiliblər. Xalqın bunlara verdiyi əmanəti - iqtidarı saxlaya bilməyənlər, onu fərsiz bir şəkildə Surət Hüseynova, Heydər Əliyevə verənlər bu əməllərinin fakturasını Rauf Arifoğluna və onun komandasına ödətmək istəyirlər. Bunların fakturasını tarix və xalq çoxdan kəsib...**

# "Cəmil Həsənli bir qab bozbaşa görə..."

## Eynulla Fətullayev: "Bu adam tamamilə çirkab içində olan, eyni zamanda Azərbaycanın ictimai fikrində olmayan birisidir"

**Milli Şuranın sədri Cəmil Həsənlinin son vaxtlar hədəfində olan şəxs və media orqanlarından biri də jurnalist Eynulla Fətullayev və onun rəhbərlik etdiyi saytlardır. Cəmil Həsənli facebook yazılarında və açıqlamalarında Eynulla Fətullayevin və saytların (haqqın.az, virtualaz.org) MTN-dən gələn sifarişlər, təlimatlar əsasında yazılar yazdığını bildirir.**



Cəmil Həsənlinin bu ittihamlarına Eynulla Fətullayev "Yeni Müsavat"a açıqlamasında sərt cavab verib.

Eynulla Fətullayev bildirdi ki, Cəmil Həsənli narahatlıq keçirir və bu narahatlığın təsiri altında ətrafa çamur yaymaqla məşğuldur: "Cəmil Həsənli ona görə narahatdır ki, həm "Yeni Müsavat" qəzeti, musavat.com saytı, həm mənim rəhbərlik etdiyim saytlar ictimai fikrə ciddi təsir göstərir. Bu media orqanları ictimai fikrin formalaşmasına istənilən siyasi partiyadan daha çox təsir göstərir. Amma Cəmil Həsənlinin Azərbaycanın nə siyasi həyatında, nə ictimai həyatında varlığı ilə yoxluğu hiss olunmur. Hər gün yüz minlərlə oxucu bu saytlara daxil olur və Azərbaycan haqqında, dünya haqqında məlumatları öyrənir. Cəmil Həsənlinin təmsil etdiyi Milli Şuranın mitinqinə maksimum iki min adam gəlir. Yəni onun sosial bazası 2 mindən artıq deyil. Bu şəxsin narahatlığı bundan irəli gəlir. Ölkə prezidenti postuna, müxalifətin liderliyinə iddia edən adam əlbəttə ki, bu gerçəkliyi görür".

**E.Fətullayev qeyd etdi ki, Cəmil Həsənli şəxsi marağına görə partiyasına və sədrinə xəyanət etmiş adamdır:** "Hakimiyyətdən qidalanmağa qalanda, bunun ən bariz nümunəsi Cəmil Həsənlinin özüdür. Bir mandata görə öz partiyasının sədrini satan, bir qazan bozbaşa görə öz partiyasına xəyanət edən şəxsin Cəmil Həsənli olduğunu hər kəs bilir. Cəmil Həsənli öz partiyasına ən ağır vaxtda xəyanət edib. Əli Kərimliyə qarşı Milli Məclisdə bir hücum təşkil olunmuşdu. Həmin vaxt parlamentin iclasında AXCP sədrinin müavini, deputat Cəmil Həsənli də əyləşmişdi. O zaman Əli Kərimlini müdafiə edən Cəmil Həsənli olmadı, Rauf Arifoğlu oldu. Rauf Arifoğlunun qəzeti Əli Kərimliyə qarşı parlamentdəki məlum təhqiramiz hücumu pislədi. Mən xatırlayıram, müxalifətdən olan bütün deputatlar Cəmil Həsənli istisna olmaqla, parlamentdə etiraza qalxdılar. Hətta İlham Əliyevin adamı olan Asim Mollazadə Əli Kərimlinin müdafiəsinə qalxdı. Ancaq Cəmil Həsənlidən səs çıxmadı. Bu səhnə bütün Azərbaycan ictimaiyyətinin gözü qarşısındadır. Cəmil Həsənli bir mandata, bir qab bozbaşa görə Milli Məclisdə qaldı. İndi bu vicdan... adam insanlara əqidə dərsi keçməyə çalışır. Bilirsiniz, mandatı və bozbaşı onun əlindən alıblar, indi guya olub müxalifətçi".

**E.Fətullayev vurğuladı ki, Cəmil Həsənli mandat sahibi olduğu dövrlərdə hakimiyyəti müdafiə edib:** "Bu adam Misir Mərdanovu müdafiə edirdi. Biz Azərbaycanda təhsilin problemlərini qabardanda, təhsildə soyqırım siyasətinin getdiyini bəyan edəndə, hakimiyyəti təhsildə islahatlara səsləyəndə Cəmil Həsənli Milli Məclisdə təhsil naziri Misir Mərdanovu müdafiə edirdi. Şəxsi maraqlarına görə edirdi. Yəni bu adam tamamilə çirkab içində olan, eyni zamanda Azərbaycanın ictimai fikrində olmayan birisidir. Ona görə də aqressivləşib, ara-sıra ona-buna atmacalar da atacaq, hücumlar edəcək. Cəmil Həsənli əslində bu gün bir köşə yazarıdır. Mən onu artıq bir köşə yazarı kimi qəbul edirəm. Düzdür, o mənə bir neçə kitablarını hədiyyə etmişdi. Özünə də demişdim ki, istedadsız kitablardır. Tarix haqqında müxtəlif insanlar yazıb. Bir var Edvard Radinskinin kitablarını oxuyasan, bir də var Cəmil Həsənlinin kitaba yerləşdirdiyi sənədlər toplusunu oxuyasan. Mən onu sanballı əsər yazan tarixçi kimi də yüksək qiymətləndirməmişəm. Cəmil Həsənli əvvəllər tarixi sənədlər toplayıb kitab şəklində dərc etdirirdi, indi də keçib köşə yazarı fəaliyyətinə. Elnur Astanbəyli ilə Cəmil Həsənli arasında fərq görmürəm. Əxlaqın, vicdanın, şəxsiyyətin deqradasiyası ortadadır. Odur ki, məncə, Cəmil Həsənlinin nə deməsindən asılı olmayaraq ona fikir verilməməlidir".

**Etibar SEYİDAĞA**



# İkara baxan bekar

**Zamin HACI**
zaminhaci@gmail.com

"Şah Abbasın xudi-şəxsinə nisbətən kəvakibin bir ədavəti yox idi. Olara lazım idi ki, novruzdan on beş gün keçmiş İran səltənətinin təxtindən bir şəxsi aşağı salıb bədbəxt etsinlər"
**(Mirzə Fətəli Axundov, "Aldanmış kəvakib")**

**Azərbaycan Milli Elmlər Akademiyasının Şamaxı Astrofizika Rəsədxanasının dünya elmi uğrunda böyük fəaliyyəti hər birimizə yaxşı məlumdur. Örnək üçün, Ramazan bayramı başlanarkən Ay hansı gün efirdə görünəcəkdir, rəsədxana həmişə bunu yüksək dəqiqliklə Qafqaz Müsəlmanları İdarəsinə bildirir, idarənin müdiri Allahşükür müəllim isə "Ay Zaur" verilişində uca millətimizə çatdırır. Nəticədə biz Allah yolunda yürüşümüzə əzmlə davam edirik. Halbuki, İndoneziya və Burundi müsəlmanlarında qətiyyən bu imkanlar yoxdur. Hətta bəzi illərdə elə olubdur ki, İndoneziya vitse-prezidenti Yusif Kəllə Ay çıxandan sonra kəlləpaça yeyərək orucunu batil eləmiş, böyük günaha batmışdır, bundan sonra sunami gəlib ölkəni yuyub aparmışdır. Ancaq bizdə Xəzərdə heç sunami olmur, çünki bizim rəsədxanamız vardır.**

Bunun bir misalını müqəddəs iyun ayının Surətil-lənətullahi-qiyam-ətül-Gənceyi-qurtuluş günündə, yəni ayın 4-də rəsədxana müdiri Əyyub müəllim Quliyev açıqlamışdı. Həmin günlərdə rəsədxana elmi bəyanat vermişdi ki, oruclуq ayı iyunun 17-də girəcəkdir, iyun ayının 18-i gecəsi isə niyyət gecəsidir. Ancaq sən demə, buna şəkk gətirən axmaq və mürtəd insanlar var imiş, yoxsa Əyyub müəllim dəxi bəyanat verməzdi. Sitat: "Andromeda dumanlığındakı böyük alfa kvazarının spektroskopik analizi nəticəsində..." Zarafat edirəm, qorxmayın. Əyyub müəllim belə kafir sözləri danışmaz. Sitat beləncik idi: "QMİ-nin Ramazan ayı ilə bağlı verdiyi fətva tam elmi hesablamalara əsaslanıb. Biz bu hesabların üzərində bir neçə ay iş aparmışıq. Heç kimdə bununla bağlı tərəddüd olmamalıdır. Hesablamalara görə, iyun ayının 17-də ayın görünməsi ehtimalı çox yüksəkdir. Lakin hər hansı dəyişiklik olarsa, bu barədə əlavə məlumat veriləcək". Sitatın sonu.

Qürur duyuruq. Doğrudan da çox çətin hesablamadır. Ancaq ilk dəfə deyil, bunu da biləsiniz. Hətta məndə dəqiq məlumat var ki, bir dəfə uca şeyximiz Çexiyadakı şəxsi hacı pivəsi zavoduna baş çəkməyə gedərkən Malayziya təyyarəsinə minmək istəyirmiş, lakin Əyyub müəllim teleskopla baxıb, görüb Mərrix ulduzu ilə Zöhrə ulduzunun kəsişməsində bəla əlaməti vardır. Deyib, ya şeyx, bu təyyarəni burax getsin. Doğrudan da sonra həmin təyyarəni Ukrayna üzərində kafirlər vurub yerə saldılar.

Yaxud keçən il şeyximizin fətvası ilə yas yerlərində nanəli dovğa, nanotexnologiyalı bozbaş verilməsi, aşın qarasına manqo qızartması qatılması qadağan edildi. Bəyəm bunu şeyx özündən eləmişdi? Xeyr. Dəqiq məlumat var ki, bu işlərdə rəsədxanamızın elmi hesablamaları böyük rol oynayıbdır.

Uşaqları Halley kometi görünəndə sünnət eləməyin fəziləti, kosmosda namaz qılarkən qiblənin müəyyən edilməsi, Oxatan bürcünün Qız bürcünə işıq salmasının hansı fəsillərdə əməli-caiz sayılması kimi elmi işlər hamısı bizim rəsədxananın töhfələridir.

Ancaq sabağın çox pis oldum. Kefim pozuldu. Mən rəsədxanamızdan heç belə imansız, dinsiz hərəkət gözləməzdim. Yatsam yuxuma girməzdi. Elgizin verilişinə baxsam bundan yaxşı idi. Buyurun, özünüz oxuyun: "İkar asteroidinin Yerə yaxınlaşmasının heç bir təhlükəsi yoxdur, narahat olmağa dəyməz. "İkar" kiçik cisimlərdən sayılır, onlar az müşahidə olunur. Məsafə o qədər böyükdür ki, onun Yerə yaxınlaşması mümkün deyil. "İkar"ın diametri 1 kilometrə, kütləsi isə 100 min tona yaxındır. Onun yerlə məsafəsi Ayla Yer arasındakı məsafədən 21 dəfə çoxdur. Təqribən 10 milyon kilometr aralıdan keçib gedəcək. Ona görə də narahat olmağa dəyməz".

Bunu deyən rəsədxananın elmi işçisi Ədalət müəllim imiş. Təsəvvür edin, qarşıdan gələn müqəddəs Ramazan bayramı haqda məlumatda bir söz belə yoxdur! A kişi, sizi ora qoyublar ki, İkara-zada baxasınız? Nə üçün teleskopu xarab edirsiniz? Sənə deməyiblər ki, Aydan qırağa baxmaq günahdır? İkar sənin əmin oğludur? Lənət şeytana. Elə bu cür alimlərimiz üzündən bir gün göydən başımıza gerçək daş yağacaqdır.

Gərək indi Ramazan ayında qədir gecəsi Əyyub müəllim sübh şəfəqinə qədər Aya gözünü qırpmadan 6 saat 65 dəqiqə baxsın ki, bəlkə bundan sonra günah bir az azala. Biz də burdan dua eləyək, yazıqdır.

# Dəmirəl vəfat etdi

## Türkiyə siyasətinin yarım əsrlik dönəmi qapandı; Pənah Hüseyn: "Simpatiyalar əsasında siyasət yürüdən dövlət adamlarından deyildi"

**İyunun 17-də Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəl 91 yaşında vəfat edib. Dəmirəlin müalicə olunduğu Ankara Güvən Xəstəxanasının açıqlamasında ölüm səbəbi kimi böyrək və ürək çatışmazlığı, nəfəs yollarının infeksiyası göstərilir. Xəstəxana eks-prezidentin həyatdan getməsi xəbərini yaydıqdan sonra ölkədə 3 günlük matəm elan edilib. Dəmirəl 50 ildən artıq bir müddətdə Türkiyə siyasətinin aparıcı fiqurlarından olub.**

6 dəfə hakimiyyətdən endirilən Dəmirəl 7-ci dəfə hakimiyyətə gələ bilməsi ilə Türkiyə siyasətinə ən uzunömürlü siyasi lider olaraq damğasını vurub. Onun vəfatı ilə Türkiyə siyasətində bir dönəm qapanmış oldu.

Dəmirəl siyasət həyatına 1962-ci ildə Ədalət Partiyasında başlayıb. 1964-cü ildə partiya iqtidar ortağı olanda gənc Dəmirəl artıq baş nazirin müavini postuna yüksəlmişdi.1965-ci il seçkisində partiya seçkilərdə qələbə çalaraq tək hakimiyyət qurmaq imkanı qazandı, hökumət qurmaq vəzifəsi Süleyman Dəmirələ tapşırıldı. Onun 4 illik baş nazirliyi dönəmində Ədalət Partiyası Türkiyədə geniş kütlələrin dəstəyi ilə genişləndi və 1969-cu il seçkisində Dəmirəl baş nazir postunu qoruya bildi. 2 dəfə silahlı yolla hakimiyyətdən devrilsə də Dəmirəl az sonra yenidən seçki ilə hakimiyyətə qayıda bilmişdi.

12 mart 1971 və 12 sentyabr 1980-ci il hərbi çevrilişlərində baş nazirlikdən uzaqlaşdırılan S.Dəmirəl Adnan Menderesdən sonra Türkiyə siyasətinin mərkəz-sağ cərəyanının ən güclü lideri kimi tanınır.

Türkiyənin ən gərgin dönəmi kimi tanınan ötən əsrin 90-cı illərində də Dəmirəl hakimiyyətdə idi. O, Türkiyə tarixində ən çox koalisyon hökumət qurmağı bacaran hökumət başçısı kimi də qalacaq. Dəmirəl 6 dəfə qurduğu kabinetlərdə ən zidd mövqeləri olan siyasi qüvvələri bir araya gətirməyi bacarmışdı.

Dəmirəlin Türkiyəyə rəhbərlik etdiyi illərdə PKK-ya qarşı ciddi mübarizə aparılırdı. 90-cı illərin ilk yarısı ölkə tarixinə eyni zamanda kontgerilla və ya dərin dövlət adlandırılan quruluşların fəaliyyətinin aşkarlandığı dönəm kimi düşüb. Bu gün də müzakirə edilən hizbullah-dövlət münasibətləri, açılmayan səs-küylü cinayətlər, həbs edilən şəxslərin "qeyb olması", dövlət-siyasət-mafiya münasibətlərinin toqquşduğu "Susurluq" istintaqı S. Dəmirəlin ölkəyə rəhbərlik etdiyi illərdə baş verib. Prezidentlik dönəmi 2000-ci il mayın 16-da başa çatsa da Dəmirəl ölkə siyasi həyatının ən təsirli fiqurlarından olaraq qalmaqdaydı.

**Eks-prezident Süleyman Dəmirəlin vəfatı dünya mediasında da işıqlandırılır. "Reuters" Dəmirəli "Türkiyənin ilk dəfə ordu tərəfindən devrilən və 7 dəfə hakimiyyətə gələn prezidenti" kimi təqdim edib:** "Dəmirəlin övladı yoxdur. Ancaq iqtidarda olduğu illərdə kənd təsərrüfatına yönəlik qərarlarına görə Türkiyənin kənd təsərrüfatının həyat damarı olan bölgələrindəki vətəndaşlar ona "ata" deyirdi"...

"Süleyman Dəmirəl dünyanın ən yeni tarixinin ciddi siyasət adamlarından biri idi. O, Azərbaycanın müstəqilliyinin bərpası və ondan sonrakı proseslərdə iz qoymuş şəxslərdəndir".

**Bu sözləri iyunun 17-də vəfat edən Türkiyənin eks-prezidenti Süleyman Dəmirəllə görüşmüş azsaylı Azərbaycan siyasətçilərindən olan keçmiş baş nazir, AXP sədri Pənah Hüseyn deyir:** "Süleyman Dəmirəllə ilk dəfə 1991-ci ildə Ankarada görüşmüşük. Biz Ankaraya Azərbaycan müxalifət hərəkatının liderləri olaraq getmişdik. Azərbaycanda, bölgədə gedən prosesləri müzakirə etdik, Türkiyə siyasətçilərinin konkret məsələlərə baxışını öyrəndik. Daha sonra 1992-ci ilin mayında Dəmirəl Bakıya gəldi və bizim ikinci görüşümüz AXC-nin qərargahında baş tutdu. O zaman artıq Dəmirəl Türkiyə hökumətinin rəhbəri idi".

**Dəmirəlin P.Hüseynin baş nazir olduğu Elçibəy iqtidarına simpatiyasının olmamasının həmin iqtidarın çökməsində xüsusi rolu haqqında iddialar var. Bu barədə P.Hüseyn deyir ki, ortada bu məsələ ilə bağlı fərqli mövqelər də var:** "Dəmirəl simpatiyalar əsasında siyasət yürüdən dövlət adamlarından deyildi. O, təpədən dırnağa realpolitik idi. Elçibəy komandasının həm hakimiyyətə gəlməsində, həm də hakimiyyətdən getməsində Süleyman Dəmirəlin rolu olduğundan danışırlar. Reallıq isə odur ki, Elçibəy iqtidarını hakimiyyətə xalq gətirib və xalq hakimiyyəti silahlı qiyamla devrilib. Bütün böyük siyasətçilər kimi Dəmirəl nə Türkiyə tarixində, nə də Türkiyə-Azərbaycan münasibətlərində portreti birmənalı çəkiləcək dövlət adamı deyil. Hər halda, Dəmirəl Azərbaycan üzərində haqqı olan şəxslərdəndir. Allah rəhmət eləsin".



**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu da Dəmirəli ziddiyyətli xarakterli siyasətçi kimi dəyərləndirir:** "Türkiyə kimi ölkədə 50-60 il fəal siyasətlə məşğul olmaq və siyasi olimpin yüksək pilləsində qərar tutmaq asan deyil. Ancaq Dəmirəl hakimiyyətdə olduğu illərdə elə böyük uğurlara imza atmadı, siyasi və iqtisadi burulğanlara düşdü, ordu generallarının çevrilişlərinin qurbanı oldu, bu zaman asanlıqla iqtidardan imtina edir, müqavimət göstərmirdi. "Şapkamı götürüb gedərəm" deyən bir siyasətçi hakimiyyətini generallara asanlıqla təslim edirdi".







**E.Şahinoğlu S.Dəmirəlin əbədi rəqibi sayılan keçmiş baş nazir mərhum Bülent Ecevitlə münasibətlərinə də toxunur:** "Dəmirəlin müxalifətdəki rəqibi Bülənt Ecevitin siyasi sistemi normallaşdıra bilməməsi səbəbindən 1980-ci ildə hərbi çevriliş baş verdi. Bu çevrilişin nəticələri indi də hiss olunur. Bu iki liderin siyasi sistemdəki çəkişmələri onların siyasətini davam edən günümüzün siyasi partiyalarının davranışlarında açıq-aydın görünür".

**E.Şahinoğlu Dəmirəlin Azərbaycan-Türkiyə münasibətlərindəki rolu haqqında danışarkən birmənalı fikir söyləməyin çətin olduğunu deyir:** "Dəmirəlin Azərbaycan üçün də müsbət obrazda yadda qaldığını söyləmək çətindir. Onun Azərbaycanla münasibətlər tarixi ziddiyyətlidir. Bəziləri Dəmirəli Kəlbəcərin mühasirəsi zamanı Azərbaycana helikopter göndərmək istəməyən, digərləri Ermənistanın ağır vəziyyətində işğalçı dövlətə taxıl göndərən prezident kimi xatırlayır. Ən maraqlısı odur ki, Tansu Çillərin adı Azərbaycanda 1995-ci il "OMON" hadisələri ilə bağlı xatırlanarkən, yəni Türkiyənin keçmiş xanım baş nazirinin çevrilişdə əli olduğuna dair şübhələr varkən, onun partiya lideri və prezidenti olan Süleyman Dəmirəl fərqli mövqedən çıxış etmişdi. O zaman da sual yaranırdı ki, Dəmirəl Azərbaycanda Heydər Əliyevə qarşı çevrilişin əleyhinə idisə, baş nazirini niyə bu əməldən çəkindirmirdi? Dəmirəl bunun əvəzinə Heydər Əliyevi hazırlanan çevriliş haqqında Danimarkada məlumatlandırmağı lazım bilib. Yəni onun siyasəti və Azərbaycana baxışları ilə bağlı təzadlar kifayət qədərdir. Süleyman Dəmirəldən fərqli olaraq rəhmətlik Turqut Özal Azərbaycan üçün daha müsbət obrazda yadda qalıb. Təəssüf ki, Süleyman Dəmirəl haqqında bunları söyləmək çətindir".

**S.Dəmirəl Ankarada düzənlənəcək dövlət törənindən sonra vəsiyyət etdiyi kimi, doğulduğu İspartanın İslmaköy qəsəbəsindəki Çalça təpəsində dəfn ediləcək. Çalça təpəsi geniş meşəlik ərazidir. Burada Dəmirəlin məzarı ilə yanaşı onun adını daşıyan Demokratiya Muzeyi də qurulacaq. Hazırlıq işləri illər öncədən başlanan xatirə kompleksi Türkiyə dövlətinin qurucusu Mustafa Kamal Atatürkün uyuduğu Anıt Qəbirdən sonra ölkənin ikinci məzar-xatirə kompleksi olacaq.**

**Aygün MURADXANLI**

**"Oliqarxgeyt" işində tutularaq sonradan azad edilən sahibkarlar barədə yenidən həbs-qətimkan tədbiri seçiləcək. Bu haqda redaksiyamıza daxil olan məlumatda deyilir ki, Avropa Oyunlarından sonra kreditləri qaytarmayacaqları təqdirdə onlar yenidən məsuliyyətə cəlb ediləcəklər. Xatırladaq ki, Beynəlxalq Bankdan yüz milyonlarla kredit alan və geri qaytarmayan onlarla sahibkar həbs olunub, onlardan 17 nəfəri krediti qaytardıqlarından sərbəst buraxılıblar.**




# "Oliqarxgeyt" işi - Avropa Oyunlarından sonra yeni həbslər olacaq

## Beynəlxalq Bankdan götürülən kreditlərin tam qaytarılması üçün borclu sahibkarların əmlakları siyahıya alınıb; sərbəst buraxılanların isə yenidən məsuliyyətə cəlb olunacaqları deyilir

Ölkədən çıxan bəzi borclu sahibkarların geri qaytarılması üçün də hüquqi addımlar atılır, onlara məxsus olan və ölkə ərazisindəki əmlakları da müəyyən olunaraq siyahıya alınır. Məxfi şəkildə aparılan siyahıya alınma nəticəsində oliqarxların bir çox gizlinləri də ortaya çıxıb. Onların bəzilərinin katibələrinə, hətta xanımların qoca valideynlərinə də əmlak aldığı məlum olub...

"Reytinq" qəzetinin yaydığı məlumata görə, "Hafka" kimi tanınan iş adamı Hafiz Məmmədovun yeni problemi yaranıb. Hafiz Məmmədov indi də Sahibkarlığa Kömək Milli Fondu(SKMF) ilə çəkişir. Məlumatda deyilir ki, illər əvvəl Hafiz Məmmədov fonddan böyük məbləğdə kredit alıb. Artıq müflisləşən iş adamı həmin krediti ödəyə bilmir. Buna görə də tərəflər arasında gərginlik yaranıb: "Vəziyyət o qədər kritik xarakter alıb ki, artıq SKMF Hafiz Məmmədovun oğlanlarının nəzarətində olan "Bank of Azeribaijan" ASC-ni məhkəməyə vermək məcburiyyətində qalıb".

**Məlumatda o da qeyd olunur ki, SKMF-nin "Bank of Azeribaijan"a qarşı iddiasına 1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsində baxılıb. Lakin məhkəmənin qərarı mübahisəyə son qoya bilməyib. Qərardan apelyasiya şikayəti verilib:** "Şikayət bir neçə gün əvvəl Bakı Apelyasiya Məhkəməsində hakim Vidadi Məmmədovun sədrliyi ilə araşdırılıb. Hakim bankın hesablarına yönələn sanksiya və digər tələbləri rədd etsə də, borcun ödənilməsi barədə tələbləri qismən də olsa təmin edib. Bu qərarın tərəfləri nə dərəcədə qane etdiyi yaxın həftələrdə bilinəcək".

Hafiz Məmmədov hazırda ölkədə deyil. Buna görə də "oliqarxgeyt" araşdırmalarından kənarda qala bilib. Onun barəsində həbs-qətimkan tədbiri seçilməsi barədə məlumatlar var. İş adamı Beynəlxalq Bankdan çox böyük məbləğdə, bəzi məlumatlara görə, 300 milyon manat kredit götürüb və qaytarmayıb. Beynəlxalq Bankın onu məhkəməyə verməsi də kreditin geri ödənməsinə gətirib çıxarmayıb. Devalvasiyadan sonra işə Daxili İşlər Nazirliyi Mütəşəkkil Cinayətkarlıqla Baş Mübarizə İdarəsinin qarışması da nəticəni dəyişməyib. Hazırda Londonda yaşayan Hafiz Məmmədov ölkədən çıxdığını təsdiqləsə də, qaçmadığını iddia edir, geri qayıdacağını deyir.

Xatırladaq ki, Beynəlxalq Bankın vaxtı keçmiş kreditlərinə görə barəsində həbs-qətimkan tədbiri seçilmiş iş adamlarının əksəriyyəti qısa müddətdən sonra azadlığa buraxılıb. Bundan sonra müxtəlif dövlət qurumları, Əmlak Məsələləri üzrə Dövlət Komitəsi bəzi sahibkarları məhkəmə verərək əmlaklarını tələb etməyə başlayıb.

ƏMDK-nın illər əvvəl tikilən torpağa görə indi məhkəməyə müraciət etməsi əlbəttə ki, təsadüfi deyil. Bu, bütövlükdə "oliqarxgeyt" işinə cəlb olunaraq saxlanılan və sərbəst buraxılan bütün sahibkarlara yönələn addımdır və səhmlərinin yarıdan çoxunun dövlətə məxsus olan Beynəlxalq Bankdan böyük məbləğlərdə kredit götürərək qaytarmayan sahibkarlara bütün əmlaklarının əllərindən çıxa biləcəyinə işarədir.

❑ E.MƏMMƏDƏLİYEV

# Qovulmuş diplomatla bağlı yeni təfərrüatlar

## "Arif Məmmədovdan hakimiyyətdaxili qruplar istifadə edir"; Natiq Miri: "Abbas Abbasov faktoru çox şeyi sübut edir"

**Son günlər gündəmdə olan məsələlərdən biri də İslam Konfransı Təşkilatının Avropa Birliyindəki səfiri olmuş Arif Məmmədovla bağlı yaşanan məlum hadisələrdir. Öncə qeyd edək ki, A.Məmmədovun postundan geri çağırılması və təşkilatın sıralarından xaric olunması öz təsdiqini tapıb.**


Arif Məmmədov


Natiq Miri

19 mayda Binəqədidə baş verən yanğın hadisəsi ilə bağlı statusunda A.Məmmədovun məmurları sərt tənqid etməsi onun diplomatik karyerasına son qoydu. Qısa zamanda "müxalifətçi Arif Məmmədov" obrazı yarandı. Artıq o, açıq şəkildə aktiv siyasətlə məşğul olacağını, hətta prezidentliyə namizədliyini verəcəyini bəyan edib.

"Müxalifətçi Arif Məmmədov" obrazı meydana çıxandan sonra ölkə daxilindən ona ən ciddi dəstək Milli Şura tərəfindən oldu. Qurumun sədri Cəmil Həsənli, AXCP sədri Əli Kərimli və başqa rəhbər şəxslər ona ürək-dirək verən statuslar paylaşaraq, mövqelərini ifadə etdilər. Bütün bunlardan sonra sabiq səfirlə bağlı bəzi versiyalar meydana çıxdı. Əsas iddialardan biri də onun Milli Şuraya həmsədr gətiriləcəyi ilə bağlı xəbərlər oldu. Yarandığı ilk günlərdən "Rusiya projesi" hesab edilən Milli Şuranın belə canfəşanlıq etməsi başa düşülən idi. A.Məmmədovun Abbas Abbasovun yaxın adamı olması ilə bağlı xəbərlər də, onun Milli Şuraya rəhbər gələcəyi versiyasını gücləndirdi. Vaxtilə "Milyarderlər İttifaqı" yaradan, ardınca yaxın dostu Rüstəm İbrahimbəyov vasitəsilə Milli Şuranı təsis edən Abbas Abbasov nəticə qazanmadığını görüb, A.Məmmədov ismini ortaya çıxarıb.

Maraqlıdır, A.Məmmədov Milli Şuranın rəhbərliyinə gətirilərsə, nələr dəyişəcək?

**Bəzi ekspertlər hesab edirlər ki, Əli Kərimli Arif Məmmədovun rəhbər gətirilməsinə razı olmayacaq. Çünki o, Milli Şuranı tamamən özündən asılı vəziyyətdə saxlamaq siyasəti yürüdür. Politoloq Natiq Miri də bu qənaətdədir. O hesab edir ki, Əli Kərimli hər vəchlə buna mane olmağa çalışacaq:** "Buna imkan verməyən başqa siyasi faktorlar var. Burada Əli Kərimli faktoru var. O varkən, Arif Məmmədov kimi təsadüfi şəxslərin önə keçməsi inandırıcı görünmür. Onun önə keçməsi Kərimlinin maraqlarına uyğun deyil. Çünki onun siyasi kapitalı getdikcə tükənməkdədir. O, gələcək perspektivini Arif Məmmədovla görə bilmir. Əli Kərimlinin siyasi zamanı çox deyil. Mümkün olsa belə, heç bir nəticəsi olmayacaq. Cəmiyyət tərəfindən onun ortaya atılması məlum oldu. Hesab edirəm ki, Arif Məmmədovdan hakimiyyətdaxili qruplar istifadə edir. Belə ki, bir qrup digərini vurmaq üçün ona alət kimi baxır. Bu, Rusiyanın tərəfdarı olan "beşinci kalon"un içərisində baş verir. Arif Məmmədov vasitəsilə əslinə qalsa, xarici işlər naziri vurulur. Nazirin də hakim ailəyə yaxın olması heç kəsə sirr deyil. Abbas Abbasov faktoru çox şeyi sübut edir. Məsələnin kökündə duran faktor Rusiyanın güclərinin vurulmasıdır. Rusiya bunu bilməmiş deyil. Arif Məmmədovdan siyasi qəhrəman düzəltmək mümkünsüz görünür. Rusiya hansısa siyasi nəticə əldə edəcəyinə də inanmır".

**Natiq Miri Ə.Kərimlinin Arif Məmmədova olan açıq dəstəyinə də toxundu:** "Milli Şuranın yarandığı dövrü xatırlayın. Bir fəlsəfə var idi, kim gəlirsə-gəlsin, təki hakimiyyət getsin. Hətta Rusiyanın adamının belə gəlməsinə razı idilər. Nəticə etibarı ilə fiasko göz qabağındadır. Məntiq düzgün deyildi. Əli Kərimli yenə də həmin taktikadan istifadə edir. Arif Məmmədov Qərbin adamı olsa belə, nəticə dəyişməyəcək. Əli Kərimlinin özü də anlayır ki, Arif Məmmədov ortaya atılmış fiqurdur. Ola bilsin ki, hansısa güc mərkəzlərindən düymə basılıb ki, Arif Məmmədov müdafiə olunsun. Bunun nəticəsində Əli Kərimli və rəhbərlərindən biri olduğu Milli Şura üçün böyük maliyyə mənbəyi açılacaq. Ona görə də o, bu siyasi müstəvidə oynamağa başlayıb. Əli Kərimli bu oyunu çox gözəl bacarır. Çünki 1993-cü ildən bəri bu kontekstdə oyunlar oynayıb. Bu gün də eyni oyunu aparır. Arif Məmmədovun Milli Şurada heç bir perspektivi ola bilməz".

❑ Cavanşir ABBASLI

# "Bizim... müəllim" və üçüncü qibleyi-aləm



Xalid KAZIMLI

**Çox təəssüf ki, hansısa hadisələrə, siyasi şəxslərə münasibətdə bizim, jurnalistlərin və sıravi siyasi fəalların informasiyası həmişə qıt olub, dolğun, tam olmayıb. Yoxsa biz bu qədər səhvlər buraxmazdıq, zamanında adamları doğru-dürüst tanıyar, hadisələrə daha real qiymət verərdik.**

Hadisələr və şəxsiyyətlər haqqında həqiqətləri isə dəqiqliyi ilə bilənlər vardı və var. Onlar sadəcə həqiqətləri ictimaiyyətdən də, mediadan da gizlədir, qoruyub saxlayırdılar. Hələ də elə edirlər.

Bu, ona görədir ki, bir sıra həqiqətlərin ortaya çıxmasıyla bir sıra miflər dağılar, kimlərsə gözdən düşə bilərdi.

Bu səbəbdəndir ki, oturub qəzetimizin "podşivka"sını vərəqləyəndə, köhnə yazılarımıza baxanda görürəm ki, nə qədər mənasız, cılız adamları müdafiə etmişik. Nə var, nə var, onlar demokratik düşərgəyə aiddirlər və hazırda təqibə, təzyiqə məruz qalırlar.

Onların nə yuvanın quşu olduğunu isə yaxın silahdaşları bilir və bizdən gizlədirdilər. Arada şübhələnirdik ki, nəsə hər şey rəvan deyil, nəsə bilinməyən bir şeylər var. Soruşurduq. Qətiyyətlə inkar edirdilər, ya da "zamanı gələndə, ehtiyac olarsa, hər şeyi açıq danışarıq" deyirdilər.

Zamanı gələndə isə gec olurdu. Adam təqibdən, təzyiqdən, dardan qurtulub əfi ilan olur, onu vaxtından ifşa etməyənlərin, eləcə də onu müdafiə edən jurnalistlərin boğazından yapışır.

Budur, qarşımda bir köhnə yazım var: "Bizim Cəmil müəllim". Bu yazını 2013-cü il avqustun 25-də yazmışam. Prezidentliyə namizəd Cəmil Həsənlinin müdafiəsinə həsr olunmuş yazıdır. İçini oxuyuram, sanballı cümlələr var.

İndi durub o yazıdan, imzamdan imtina edəsi deyiləm, amma bugünkü informasiyalar əlimdə o vaxt olsaydı, yəqin ki, o yazı yazılmazdı.

Həm də ona görə ki, Cəmil müəllim "bizim Cəmil müəllim" olaraq qalmadı, qala bilmədi. O vaxt demokratik düşərgəyə mənsub insanlar, ölkədə dəyişiklik istəyən fəallar, tərəfdarlar, təəssübkeşlər gözlərini ona dikəndə, onu özlərinə lider seçəndə düşünürdülər ki, o hamının lideri olacaq.

Elə yazının başlığının o cür qoyulmasının səbəbi də o dövrdə mediada yer alan bir iddia ilə bağlıydı. Bir sıra opponentlər ortalığı qarışdırmaq üçün C.Həsənlinin AXCP-nin namizədi olduğunu vurğulayırdılar, biz isə onlara cavab vermişik ki, yox, Cəmil Həsənli təkcə AXCP-nin namizədi deyil, bütün müxalifətin namizədidir.

Ancaq sonradan o, qrup lideri olmağı üstün tutdu, ortada dayanmağı, tarixi missiyasını davam etdirməyi bacarmadı. Artıq funksiyasını başa vurmuş Milli Şuranı arxivə göndərib yeni birlik formatları üzərində düşünmək əvəzinə, onu müxalifət daxilində üstquruma çevirmək, istənilməyən siyasi liderləri sıradan çıxarmaq, kənara atmaq üçün instituta çevirməyi üstün tutdular. Nəticəsi də bu cür oldu: Milli Şura sarsıntılara, qopmalara məruz qaldı, dağıldı, Cəmil Həsənli isə müxalifət düşərgəsinin namizədi statusundan bir partiyadan ibarət qurumun formal sədri olmaq mərtəbəsinə qədər endi.

İndi dostlar onun haqqında heç kəsin bilmədiyi bəzi faktları açıb danışır, yazırlar. Adam bir az da hiddətlənir: niyə bunları zamanında demirdiniz. Cavab da bu cürdür: "düşərgənin naminə", "ümumi mənafeyə görə", "yanlış başa düşülərdi" və s.

Xeyr, məhz indi yanlış başa düşülür. Həqiqətləri vaxtında demək lazımdır. Tərəfdarları, təəssübkeşləri aldatmaq, onlara həqiqətin yarısını deyib, yarısını saxlamaq olmaz.

Bu üzdəndir ki, müxalifət düşərgəsi toparlana bilmir. Siyasi fəalların, narazı elektoratın gözü yeni, "sehirli çubuğu" olan, "hamını öz ətrafında sıx birləşdirəcək" xilaskar lider axtarır.

Keçmiş səfir və diplomat Arif Məmmədovun vaqiəsi buna parlaq misaldır. Adamı bir ay öncə yaxınlarından və işlədiyi idarədən kənarda bir kəs tanımırdı. İndi bütün siyasi fəallar tanıyır. Bir siyasi qrup isə ona böyük ümidlər bəsləyir. Son iki ildə bu, artıq üçüncü "qibleyi-aləm"dir.

Hələlik onun nə biçim bir şəxsiyyət olduğu o qədər də aydın deyil. Barəsində informasiya azdır. Fəqət yəqin ki, A.Məmmədov barədə həlledici həqiqətləri bilən qərəzsiz insanlar var və onlar bunu açıb demirlər.

Nəticədə ona ümidlə baxanların sayı artır.

Ən pis şey böyük adam hesab etdiyin, çox şey gözlədiyin birinin sıradan, adi biri olmasını, heç bir müstəsna və üstün qabiliyyətinin olmadığını görmək və umsuq olmaqdır.

YENİ MÜSAVAT
N 131 (6159) 18 iyun 2015



# MSK Rizvan Vahabovun gizlətdiyi əmlaklarını üzə çıxarıbmış...

## Şikayətçilər: "Əgər o, ilkin kapitalını qanuni qazanmışdısa, niyə parlament seçkiləri dövründə əmlaklarının varlığını gizlədirdi?"

**Səbah Ali Məhkəmədə Neft Kəmərləri İdarəsinin (NKİ) sabiq rəisi Rizvan Vahabovla 7 vətəndaşın - Sevinc Rəcəbova, Təranə Hüseynova, Anar Əsədov, Vüsalə Xamıyeva, Zamiq Əhmədov, Əhliman Alıyev və Adil Kazımovun məhkəmə çəkişməsinə nöqtə qoyulacaq. Tərəflər arasında məhkəmə çəkişməsinin mahiyyəti bundan ibarətdir ki, 2011-ci ildə 7 vətəndaş Murtuza Muxtarov küçəsi 145 ünvanındakı binanın 1-ci mərtəbəsində yerləşən qeyri-yaşayış sahələrini və mənzilləri alıblar. Sonradan onlar Rizvan Vahabovun qanunsuz iddiaları ilə rastlaşıblar.**



### Sabiq NKİ sədrindən ölkə prezidentinə şikayət olundu

Redaksiyamıza müraciət edən vətəndaşlar R.Vahabovla bağlı olan və ona yönəlik çox ilginc ittihamlar yer alan materiallar da təqdim ediblər. Ötən sayımızda NKİ rəisi olaraq R.Vahabovun Azərbaycan benzinini Ermənistana göndərməsinin bəzi təfərrüatlarını təqdim etmişdik. Şikayətçilərin redaksiyamıza təqdim etdikləri materiallar sırasında R.Vahabovla eks-spiker Rəsul Quliyevin əlaqələrindən bəhs edən materiallar da var. Maraqlıdır ki, R.Vahabov "Yeni Müsavat"da dərc olunan yazılara digər saytlar üzərindən qeyri-obyektiv münasibət bildirməyə üstünlük verib. Onun açıqlamalarını Rəsul Quliyevə simpatiyası ilə seçilən saytlar həvəslə tirajlamağa başlayıblar.

### Şikayətçilərin ümidi ölkə prezidentinədir

**Şikayətçilər isə keçmiş məmurun onlara qarşı qanunsuzluqlarının nəhayət ki, son veriləcəyi ümidi ilə prezident İlham Əliyevə, Ali Məhkəmənin sədri Ramiz Rzayevə, Milli Məclisinin sədri Oqtay Əsədova, baş prokuror Zakir Qaralova, Məhkəmə Hüquq Şurasının sədri Fikrət Məmmədova, ombudsman Elmira Süleymanovaya müraciət ediblər. Həmin müraciəti ixtisarla təqdim edirik:**

***"Hörmətli cənab prezident!***

Bildirmək istəyirik ki, biz M.Muxtarov 145 ünvanında sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeyri-yaşayış sahəsi almışıq. Bir müddət keçdikdən sonra bizi məhkəməyə dəvət etdilər ki, bura mübahisəlidir və qeyri-qanuni olaraq bizim sahələrə həbs qoyaraq əmlakımızdan məhrum etdilər. Ancaq bura aidiyyəti olmayan başqa bir adama fəaliyyət göstərməyə icazə veriblər. Araşdırma vaxtı məlum olub ki, iddianı Qoloveşkina Anna adlı bir qadın qaldırıb və bütün bunların arxasında pullarının sayı bilinməyən keçmiş məmur Rizvan Vahabov durur. Araşdırmalar vaxtı məlum olur ki, həmin sabiq məmurun külli miqdarda pulu, obyektləri, çoxlu evləri var. Daha sonra keçmiş məmurun təsiri ilə müqavilələri araşdırmaq üçün Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə göndərirlər. Qeyd etmək istəyirik ki, bizə məxsus əmlakların hamısının Dövlət Reyestr İdarəsindən çıxarışı var. Ancaq onlara məxsus heç bir sənəd yoxdur. Araşdırma zamanı məlum olmuşdur ki, A.Qoloveşkinanın adına olan müqavilələr, həmçinin kassa mədaxil orderləri saxtadır. Bu qadın tərəfindən "VOLBAK" MMC-yə bir qəpik belə pul ödənilməyib.

***Cənab prezident!***

Sizin "Cəmiyyəti narahat edən məsələlərlə bağlı konkret addımların atılması ilə bağlı" mayın 27-də "Buta" Sarayında Respublika günü münasibətilə rəsmi qəbulda çıxışınız bizi sevindirdi.

"Mən burada ictimai nəzarətin əhəmiyyətini xüsusi qeyd etmək istəyirəm. Mən bu barədə dəfələrlə fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm ki, bu, mənim çox səmimi fikirlərimdir. İctimai nəzarət olmasa ölkəmiz uğurla inkişaf edə bilməz. Bir adam - Prezident, yaxud da ki, rəhbər işçilər hər bir sahəni daim diqqət mərkəzində saxlaya bilməz. Ona görə bəzi hallarda qanunsuzluqlar, qanım pozuntuları, sosial ədalətin pozulması halları baş verir. Bu, bizi çox üzür. Biz buna yol verə bilmərik. Bunun qarşısını almaq üçün mütləq çox güclü ictimai nəzarət olmalıdır. Belə olarsa, o zaman işlər daha da sürətlə gedər və xoşagəlməz halların aradan qaldırılması üçün yeni bir mexanizm yarana bilər. Burada əlbəttə ki, dövlət idarəetmə prinsiplərində ciddi islahatlar aparılmalıdır və eyni zamanda ictimaiyyət də daha fəal olmalıdır. Biz bunu son vaxtlar görürük. Bizim ictimaiyyət hər hansı bir yerdə qanunsuzluqlar, pozuntular, ədalətsizliklər baş verdikdə dərhal reaksiya verir. Mən bunu alqışlayıram. Bu, bizə kömək edir. Bu canlı bağlantı daim olmalıdır və gücləndirilməlidir".

Respublikamızın belə inkişaf etdiyi bir vaxtda bizim məhkəmə-hüquq sisteminin fəaliyyətinə utanmazcasına müdaxilə edərək Azərbaycan vətəndaşlarına şər ataraq dövlət tərəfindən verilmiş çıxarışlar ola-ola bu çıxarışları ləğv elətdirmək istəyən və hansı ki, bəzi hakimlərin qeyri-ciddi mövqeyindən istifadə edərək bunlara nail olmaq istəyənlərə yardım edilir. Bütün bu işləri keçmiş dövlət məmuru olmuş Rizvan Vahabov məhkəmələrə təsir etməklə hər yerdə deyir ki, "Ali Məhkəmə mənim üçün heç bir şeydir" və bunu da onunla əsaslandırır ki, əvvəlki məhkəməni də onun təsiri ilə bizim əleyhimizə çıxarıblar. Rizvan Vahabov keçmiş əlaqələrindən və külli miqdarda olan pullarına arxalanaraq deyir ki, siz heç bir məhkəməni uda bilməzsiniz. O, bu əməllərini həyata keçirmək üçün hətta ədliyyə nazirinin müavini Azər müəllimin adından istifadə edir, deyir ki, o, mənim dostumdur, və məhkəmələrə nəzarəti həyata keçirir. Ona görə də onun tapşırığından heç kəs çıxa bilməz. Çünki mən də onun bəzi tapşırıqlarını yerinə yetirirəm. Bundan başqa, o, Ali Məhkəmənin bəzi işçilərinin də adını hallandırır ki, burada da onun havadarları var. Bu da bir daha R.Vahabovun Ali Məhkəməyə və hakimlərə qarşı haqsızlığıdır. Hətta hörmətli prezidentimizin tapşırıqlarından sonra Rizvan Vahabovun və onun kimilərin bu cür müdaxilələri niyə aradan qaldırılmır? Ancaq bu gün Rizvan Vahabov və onun adamları bizə bildirirlər ki, bu dəfə də Ali Məhkəmədə sizə qarşı tədbir görüləcək və məhkəmə baş tutmamış qələbələrini qeyd edirlər".

**Şikayətçilər yazır ki, R.Vahabov əllərində dövlət tərəfindən verilmiş çıxarışların olmasına baxmayaraq saxta sənədlərlə onları hədələyir:** "Rizvan Vahabov ailəmizi ac qoyacağını deyərək bizi hədələyir. Amma bizlər konstitusiyanın 29-cu maddəsinə - mülkiyyət hüququmuza əsaslanıb, prezidentimizə arxayınıq".

***

### Vahabovun gizlətmək istədiyi əmlakları MSK üzə çıxarıb

Şikayətçilərin redaksiyamıza təqdim etdiyi materiallar sırasında R.Vahabovun 2010-cu ildə parlament seçkilərinə qatılmasından sonra ortaya çıxan və Mərkəzi Seçki Komissiyasının (MSK) protokolu ilə təsdiqlənən gizli əmlakları haqda məlumat da yer alıb.

Deputatlığa namizədliyi öz təşəbbüsü ilə 110 saylı Zaqatala seçki dairəsindən irəli sürmüş R.Vahabovun namizədliyi qeydə alınmayıb. Bundan sonra Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək namizədliyinin qeydiyyatından qanunsuz imtina edilməsini bildirib və bununla əlaqədar qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini xahiş edib.

Araşdırma nəticəsində müəyyən edilib ki, dairə seçki komissiyası namizədliyin qeydə alınmaması barədə düzgün nəticəyə gəlib.

Belə ki, Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədliyin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş rəy və protokoldan görünür ki, namizədin qeydə alınması üçün təqdim olunmuş 500 seçici imzasından 130-u etibarsız hesab edilmiş, qalan imzalar isə namizədin qeydə alınması üçün seçki qanunvericiliyi ilə tələb olunan etibarlı imzaların sayından az olduğundan onun qeydə alınması üçün kifayət etməmişdir.

İşçi qrupunun üzə çıxardığı ən maraqlı məqam isə namizədin qeydə alınması üçün imza vərəqələri ilə birlikdə gəlirlərinin miqdarı və mənbəyi haqda, əmlak barəsində məlumatlar və ilkin maliyyə hesabatının təqdim edilməməsi olub. MSK-nın sorğusuna əsasən daşınmaz əmlakın dövlət reyestrinin bazasında R.Vahabovun mülkiyyətində Bakı şəhərində mənzilin və Sahil qəsəbəsində torpaq sahəsinin qeydiyyata alınması müəyyən edilib. O dövrdə bu məqamlara istinad edən MSK R.Vahabovun namizədliyini qeydə almayıb.

Şikayətçilər deyirlər ki, necə olur ki, dünən yanacaq komitəsinin, sonradan Neft Kəmərləri İdarəsinin sədri olan biri tez bir zamanda biznesmenə çevrilir? Əgər o, ilkin kapitalını qanuni qazanmışdısa, niyə parlament seçkiləri dövründə əmlaklarının varlığını gizlədirdi?

Yada salaq ki, "Yeni Müsavat"a müraciət edən vətəndaşlar 2011-ci ildə Murtuza Muxtarov 145 ünvanında yerləşən binanın 1-ci mərtəbəsində yerləşən qeyri-yaşayış sahələrini və mənzilləri alıblar. Az sonra isə R.Vahabov qayınanası A.Qoloveşkina vasitəsilə vətəndaşların qanuna uyğun şəkildə əldə etdikləri əmlakları onlardan almağa çalışıb. Vətəndaşlar həmin əmlakları qanuni şəkildə əldə etmələrini təsdiqləyən çıxarışları da redaksiyamıza təqdim ediblər. Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsində aparılan araşdırma zamanı məlum olub ki. R.Vahabovun 80 yaşlı qayınanasının məhkəmələrə təqdim etdiyi sənədlər saxtadır. 4 il davam edən məhkəmə çəkişmələrindən sonra iş növbəti dəfə Ali Məhkəməyə göndərilib. Vətəndaşlar inanırlar ki, bu məhkəmə instansiyasında nəhayət ki, ədalətli qərar veriləcək. Bununla da R.Vahabovun bir qanunsuzluğunun qarşısı alınmış olacaq...

❑ **E.MƏMMƏDƏLİYEV**

***P.S.** Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

YENİ MÜSAVAT
N 131 (6159) 18 iyun 2015

**Azərbaycan hakimiyyəti ilə Qərb arasında iplər qopur. Hakimiyyətin uzun illər Qərblə davam edən anlaşma-bazarlaşma siyasəti dönəmi artıq arxada qalıb. Qərb artıq Bakıya sərt üzünü göstərir. Əlbəttə, illər əvvəl də bu günü proqnozlaşdıranlar vardı. Amma uzun müddət Bakının manevr siyasəti, Qərbin isə enerji və təhlükəsizlik naminə göz yummaları nəticəsində anlaşma var idi.**

# Hakimiyyətin Qərbə qarşı dayanmasının səbəbkarı müxalifətdir?!

## İqtidar ölkə daxilindəki müxalif gücü zəiflətməsindən yaranan arxayınçılıqla Qərbin təzyiqlərinə qarşı müqavimət göstərir; 10 il əvvəl Bakıya bu cür xarici təzyiqlər edilsəydi, indi vəziyyət başqa cür olardı



İndi isə görünən odur ki, Qərb paytaxtları ilə Bakının anadolular demiş, arası açılıb. Bakıdan anti-Qərb bəyanatları *(bunların bəziləri təhdid xarakterlidir - K.R.)* Qərb hökumətləri ünvanına rəsmi səviyyədə sərt tənqidlərin ard-arasının kəsilməməsi, rəsmi medianın tənqidi materialları münasibətlərdə ciddi problemlərin olduğunu ortaya qoyur. Avropa Oyunlarının açılışına Qərbi Avropanın heç bir dövlət və ya hökumət başçısının gəlməməsi Qərbin Azərbaycan hakimiyyətinə münasibətinin göstəricisi kimi təqdim olunsa da, görünən odur ki, ortada daha ciddi məqamlar var.

İyunun 16-da Prezident Administrasiyası rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov özünün twitter səhifəsində Qərbi, daha dəqiqi, "Böyük yeddilər" adlandırılan dövlətlər klubunu tənqid edib. "G7 - "yeddilik" öz siyasəti ilə özünü beynəlxalq birlikdən ayırır" - deyə N.Məmmədov yazıb.

Elə həmin gün AŞ PA Komitəsində Avropa Məhkəməsinə Azərbaycandan hakimliyə irəli sürülən üç namizədin "kifayət qədər yaxşı kvalifikasiyalı olmadığı" əsas göstərilərək namizədlikləri rədd edilib. Eyni gündə Cenevrədə BMT-nin İnsan Haqları Şurasının qərargahında, 29-cu sessiya çərçivəsində "Avropa Oyunlarının repressiv üzü" mövzusunda tədbir keçirilib.

Əlbəttə, bütün bunlar sırf təsadüfən üst-üstə düşə bilər. Amma istənilən halda mənzərə aydın olur. Qərb institutları insan haqları, demokratiya mövzusunda illər öncə demədikləri, etmədiklərini indi edirlər və deyirlər. Yeri gəlmişkən, bir neçə gündən sonra AŞ PA yay sessiyası öz işinə başlayacaq. Bu sessiya zamanı Azərbaycanın səs hüququnun alınması məsələsi gündəmə gələ bilər.

Hazırkı vəziyyətdə Azərbaycan hakimiyyətinə qarşı beynəlxalq qurumların, xüsusən də Qərb ölkələri və siyasi institutları tərəfindən ciddi basqı var. Təbii ki, bunu Azərbaycan hakimiyyəti də bilir və buna görə də müqavimət göstərir, əks-hücuma keçir, xüsusən də daxili ictimai rəydə anti-Qərb ovqatını artırmağa çalışır. Hətta bəzən elə görünür ki, Bakı rəsmiləri Qərblə şantaj dili ilə danışmaqla güzəştə vadar etməyə nail olacaqlarını düşünürlər. Lakin bəlli məsələdir ki, bu vəziyyət bir gündə yaranmayıb, hakimiyyət son illərdə açıq şəkildə uzun illər davam etdirilən (pis-yaxşı) Qərbə inteqrasiya, Qərblə yaxın tərəfdaşlıq kursundan imtina edib. Doğrudur, Bakıda rəsmilər uzun müddət bunu "balanslı siyasət", "Rusiyanın ehtimal olunan təzyiqlərindən qorunmaq" kimi yozsalar da, indi görünür ki, artıq vəziyyət balans həddini çoxdan keçib. İndi qarşıda Qərbin Bakıya qarşı siyasi ekspertlərin dediyi kimi, sayı minlərlə olan təzyiq və embarqolarını gözləmək lazımdır. Bir şey dəqiqdir ki, Qərb artıq indiki Azərbaycan hakimiyyətini dost olaraq görmür və əvvəlki kimi gələcəyə ümidli bəyanatlar vermir.

Ancaq bütün bunlara baxmayaraq hakimiyyət hələ də Qərblə dil tapmağa, başqa sözlə, geri çəkilməyə çalışmır. Çünki dünya siyasətindən az-çox xəbəri olanlara aydındır ki, artıq BMT, AB səviyyəsində beynəlxalq qınağa tuş olan hökumətlərin Qərb ölkələri ilə müttəfiq əlaqələri mümkün deyil. Hətta Azərbaycanın strateji önəmini nəzərə alsaq, deyə bilərik ki, tezliklə Azərbaycanda hakimiyyət dəyişikliyi etmək üçün Qərb öz rıçaqlarını işə sala bilər. O zaman iqtidarın belə əmin, Qərbə qarşı dayanmasına səbəb olan amil(lər) nədən ibarətdir? Təbii ki, ortada Rusiya amili var və hər kəsə aydındır ki, bu bölgədə Qərbə düşmənçilik edən hakimiyyətlərin əsas dayağı Moskvadır. Amma hara qədər? Son illərin təcrübəsi göstərir ki, hətta nə qədər güclü təsiri olsa da, Rusiyanın da gücü bir yerə qədərdir. Deməli, Bakını arxayın salan başqa amillər də var. Təbii ki, hakimiyyətlərin dayanıqlığı üçün iki əsas faktor var: daxili və xarici faktor. Aydın olur ki, xarici faktorlar heç də Bakının xeyrinə deyil.

Daxildə isə vəziyyət xeyli dərəcədə hakimiyyət üçün uyğundur. Ən azı indiki periodda. İqtidar xüsusən də son illərdə apardığı repressiv siyasət nəticəsində daxildə özünə təhlükə yarada biləcək bütün qüvvələri sıradan çıxarıb. Ənənəvi müxalifət, media, QHT-lər, insan haqları qurumları və az sayda olsa da yeni nəsil liberal siyasi qruplar hamısı əzilib, məhv edilib. İndi ölkə daxilində ictimai rəyə nəzarət bütövlükdə hakimiyyətin nəzarətindədir. Görünən odur ki, məhz daxildəki yaranmış situasiya Azərbaycan hakimiyyətini arxayınlaşdırır, xaricdən gözlənilən təzyiqlərə qarşı rahat davranmasına səbəb olur.

Məsələn, ötən ay Makedoniyada baş verən vəziyyətin Azərbaycanda təkrar olunması ehtimalı demək olar ki, yoxdur. Ancaq aydın məsələdir ki, daxildə güclü müxalifət institutunun və ya heç olmasa narazı kütləni birləşdirə biləcək bir təşkilat olsaydı, indi Azərbaycanda fərqli siyasi vəziyyətin şahidi ola bilərdik. Hakimiyyət məhz bu faktoru nəzərə alaraq daxildə potensial "təhlükə mənbələrini" əzərək məhv edib və indi Qərbdən gələn təzyiq və təhdidləri qulaqardına vurur.

**❑ Kənan RÖVŞƏNOĞLU**

# Emin Hüseynov Azərbaycan vətəndaşlığından çıxarıldı

## Hökumətin addımları bir şey deyir, YAP-çı deputatlarınkı başqa şey

**RATİ sədri Emin Hüseynovun ölkədən çıxarılmasının yeni sensasion təfərrüatları məlum olub. Virtualaz.org saytına hakimiyyət dairələrindəki mənbələrdən daxil olan məlumata görə, E.Hüseynov 10 aydır gizləndiyi İsveçrə səfirliyinin binasını Azərbaycan və İsveçrə hakimiyyətləri arasında əldə edilmiş razılıq sayəsində tərk edib. Bu razılaşma Azərbaycan və İsveçrə arasında dostluq və tərəfdaşlıq münasibətləri çərçivəsində əldə edilib.**



Məlumata görə, Emin Hüseynov Azərbaycan dövləti qarşısında vergi borcunu tamamilə ödəyib (təxminən 160 min dollardan söhbət gedir). Həmçinin Azərbaycan prezidentinin sərəncamı ilə E.Hüseynovun ölkə vətəndaşlığından çıxmasına dair müraciəti təmin olunub. Bununla birlikdə onun barəsində 2014-cü ilin avqustunda qəbul edilmiş həbs qətimkan tədbiri humanitar əsaslarla ləğv edilib və E.Hüseynovun müalicə almaq üçün İsveçrəyə getməsinə icazə verilib.

Xatırladaq ki, bir gün əvvəl YAP-ın icra katibinin müavini Siyavuş Novruzov sensasion açıqlama ilə çıxış edərək E.Hüseynovun Azərbaycandan qanunsuz şəkildə, gizlicə qaçırıldığını bəyan etmişdi.

**Onun hakimiyyətlə əldə edilmiş razılaşma əsasında ölkəni tərk etdiyini İsveçrə qaynaqları da təsdiq edir. swissinfo.ch xəbər verir ki, E.Hüseynovu ölkədən çıxaran İsveçrənin xarici işlər naziri Didye Burkhalter bu barədə yerli RTS kanalına müsahibəsində deyib. O deyib ki, E.Hüseynovun azad edilməsi olduqca gərgin və mürəkkəb danışıqların nəticəsi idi:** "Mən ötən il prezident Əliyevlə şəxsən görüşdüm. Bir neçə müzakirələrdən sonra biz belə ortaq qənaətə gəldik ki, Hüseynov Azərbaycanı tərk etsə, daha yaxşı olar"...

Amma bu hadisənin ardınca yaşananlar da çox maraqlı idi. Daha doğrusu, YAP-çı deputatların E.Hüseynova yönəlik çıxışları bu məsələdə "yuxarıdan gələn direktiv"in fərqli olduğunu göstərdi. Öncə açıqlamalardakı bəzi detallara diqqət edək. Deputat Zahid Oruc deyib ki, E.Hüseynovun detektiv romanlarda olduğu kimi mühüm missiya və əvəzolunmaz persona sahibi kimi ayrıca təyyarə ilə Bakıdan çıxarılması, ardınca buna görə hökumətimizə təşəkkür və səltəraltı qınaqların bildirilməsi hazırkı beynəlxalq münasibətlər sisteminin acınacaqlı durumda olmasının göstəricisidir.

**Siyavuş Novruzov isə E.Hüseynovun Azərbaycandan gizli yolla aparıldığını və bunun qanunsuzluq olduğunu deyib:** "Emin Hüseynov Azərbaycandakı fəaliyyəti ilə bağlı qanun qarşısında cavab verməlidir. İsveçrənin Azərbaycandakı səfirliyi Emin Hüseynovu uzun müddət gizlətdi. Ona verilən 1 milyon 500 min manat qrantın 160 min manatı vergiyə ödənilməli idi. Vergidən yayınma ağır cinayət hesab olunur. Bu maliyyənin bir hissəsini onu verən təşkilat mənimsəyib, müəyyən hissəsi də təyinatdan kənar, başqa istiqamətlərə-dövlət əleyhinə işlərin aparılmasına, kütləvi ixtişaşlara insanların cəlb edilməsinə xərclənib".

Ekspertlər isə hesab edir ki, xüsusən S.Novruzov səviyyəsində deputatın, eləcə də digərlərinin bu cür açıqlamalar verməsi siyasətin tərkib hissəsidir. Yəni onlar məlumatsızlıqdan yox, hökumətin E.Hüseynov məsələsində aydınlıq gətirilmədiyi üçün hakimiyyət məsələni ictimai rəydə öz xeyrinə yönləndirmək niyyətindədir. Yəni "biz qorxmadıq, çəkinmədik, anlaşmaya getmədik. Emin Hüseynovu qaçırdılar və o, bizim gözümüzdə cinayətkardır".

**❑ Sevinc TELMANQIZI**

# AŞ PA Azərbaycan məsələsini iyunun 23-də müzakirəyə çıxarır

## Sessiyanın gündəliyinə tədim edilən məsələlərin siyahısı hazırdır



**BMT-nin baş katibi Pan Gi Mun AŞ PA-nın yay sessiyasında çıxış edəcək. Avropa Şurasının rəsmi səhifəsində verilən xəbərə görə, iyunun 22-26-da keçiriləcək yay sessiyasının əsas çıxışçıları sırasında Malta prezidenti Meri Luiza Koleyro PresA, Bosniya və Hersoqovinanın rəhbəri Mladen İvaniç də var.**

Gündəliyə tövsiyə olunan əsas məsələlər Rusiya Federasiyası nümayəndə heyətinin səlahiyyətlərinə xitam verilməsi, Azərbaycandakı demokratik institutların fəaliyyəti, Macarıstandakı daxili durum, Orta Doğudakı problemlərlə bağlı Avropaya miqrant axınıdır. Gündəliyə tövsiyə olunan daha bir məsələ Ukraynada konflik zonasında itkin düşən insanların taleyi ilə bağlıdır. Sessiyanın gedişində AŞ-yə üzv ölkələrdə media təhlükəsizliyi də var.

İyunun 23-də keçiriləcək plenar toplantıda Avropa Şurasının Türkiyədə keçirilən 7 iyun parlament seçkisini müşahidə missiyası hesabat səsləndirəcək.

İyunun 23-də keçiriləcək toplantıda Avropa İnsan Haqları Məhkəməsinin hakimliyinə irəli sürülən namizədlərin təsdiqi də gözlənilir. Yada salaq ki, Avropa İnsan Haqları Məhkəməsi Azərbaycanın quruma göndərdiyi 3 nəfərlik namizədlər siyahısını qəbul etməyib. AİHM rəsmi Bakının namizədlərinin kvalifikasiyasının və iş təcrübəsinin qurumun hakimi olmağa yetmədiyi qənaətinə gəlib.

Azərbaycandakı demokratik institutların fəaliyyəti də iyunun 23-də müzakirə ediləcək. "Yeni Müsavat"ın AŞ-dəki qaynaqlardan əldə etdiyi bilgiyə görə, Azərbaydan üzrə həmməruzəçilər rəsmi Bakının bu sahədəki mövqeyini sərt tənqid edən hesabat hazırlayıb. Hesabatın səsləndirilməsindən sonra məsələ ətrafında Avropa parlamentarlarının müzakirəsi keçiriləcək. Əgər gözlənildiyi kimi, iyunun 15-də Azərbaycan siyasi məhbusların azad edilməsi ilə bağlı ciddi addım atsaydı, hesabata yumşaq tonların əlavə edilməsi mümkün idi. Ancaq bu baş vermədiyi üçün Avropa parlamentarlarının öz öhdəliyini yerinə yetirməyə Azərbaycanın qurumdakı təmsilçiliyini müzakirəyə çıxaracağı ehtimal olunur.

Azərbaycanı yaz sessiyasında Səməd Seyidovun rəhbərlik etdiyi Milli Məclisin nümayəndə heyəti təmsil edəcək . Artıq nümayəndə heyəti üzvlərindən bəzilərinin Strasburqa getməsi haqqında xəbərlər var. Azərbaycanın hüquq müdafiəçiləri yay sessiyasına qatılmayacaqlar. Onları yay sessiyasında iştirakdan çəkindirən qərar ölkədə insan haqlarının durumu ilə bağlı ciddi addımların atılmaması, xüsusinə siyasi məhbusların həbsdən azad edilməməsidir. Yay sessiyasına Azərbaycan vətəndaş cəmiyyətinin fəalları da dəvətlidir. Dəvət edilənlərin çoxu siyasi təqiblərə görə Avropa ölkələrinə sığınanlardır.

**❑ Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 131 (6159) 18 iyun 2015

# "Deyir, otaqları elə düzəlt ki, mən gəlini görməyim...."

## Yanmış binanın təmirində sakinlərlə iş icraçıları üz-üzə; **Rəhman Məmmədov:** "Elə absurd istəkləri olur ki, bir bilsəniz...."

**"Xanım, siz deyəsən, binanın içindən çıxdız...Oraları gördüz? Nə günə qoyublar bizim evimizi?" Azadlıq prospektindəki yanan binada təmir-tikinti prosesinin son sürətlə getdiyi bir gündə durumu öyrənmək üçün "Yeni Müsavat"ın əməkdaşı olay yerində idi. Bu dəfə ətrafda bina sakinlərinin sayı az idi.**

Girişdə əməkdaşımıza müraciət edən orta yaşlı xanımdan və "biz yas yerinə tələsirik, mətbuata da danışmağın mənası yoxdu, qoy görək başımıza nə iş gəlir" deyən ər-arvaddan başqa, təbii ki sakinləri daha çox evlərinin təmiri, son durumu, layihədə nəzərdə tutulanlar maraqlandırırdı. Və deyəsən, bu da ciddi qalmaqal, problemin səbəblərindən biri idi. Çünki tikinti təşkilatının rəhbəri, səlahiyyətli nümayəndələri ilə sakinlər arasındakı fikir ayrılıqları, söz dartışmaları bu səbəbdən yaranırdı.

### Binanın daxili tam sökülür, kərpiclə yenidən tikilir...

Öncə ondan başlayaq ki, ötən həftə binaya aparıcı yoldan olan giriş qapadılsa da, dünən açıq idi. Öyrəndik ki, girişin bağlanmasına səbəb bina sakinlərinin tez-tez sözügedən əraziyə gəlib, layihə ilə bağlı mübahisələr etməsi, iş icraçıları, tikintiyə nəzarət edən şəxslərə göstəriş vermə cəhdləri olub. Amma daha sonra sakinlərin israrları, narazılıqları qarşısında giriş yenidən açılıb. Biz binada olanda qızğın iş gedirdi. Fotolardan da gördüyünüz kimi, binanın hər mərtəbəsində təmir-tikinti işləri davam edirdi və ona nəzarət edən briqada da iş başında idi. Binanın yaxınlığındakı anım yeri isə küləkli və günəşli havanın "qəzəbinə" məruz qalmışdı. Belə ki, həmin yerə qoyulan çiçəklər solmuş, yazılan plakatları, yerə düzülən fotoları isə ya külək aparmış, ya da çox güman yaxınları yığışdırmışdı.

**Əməkdaşımızı binada görülən işlərlə tanış edən tiktinti təşkilatının baş mühəndisi Rəhman Məmmədov bildirdi ki, hazırda binanın daxili tam sökülür, kərpiclə yenidən hörülür. Bundan başqa, suvaq və elektrik işləri də aparılır. Fasadda da suvaq işlərinin getdiyini deyən müsahibimizə görə, sabahdan da alçipan işləri başlanacaq:** "5-6 ay deyilib bizə. Ən yüksək səviyyədə, tam sürətlə aparılır işlər. Səhər saat 8-dən 12-yə kimi işləyir fəhlələr. 150-200 nəfərə yaxın fəhlədir. İkinövbəli iş sistemidir. İşləri deyilən vaxtdan da tez qurtarmaq mümkündür".

### "Deyir, kanalizasiya borusunu çöldən sallayaq, onu da çölə axıdaq..."

**Tikinti şirkətinin rəhbəri Emil Hacıyev isə daha çox sakinlərdən narazılıq etdi. Bildirdi ki, sakinlərin zaman-zaman yersiz müdaxilələri, reallıqdan uzaq istəkləri onların işinə mane olur:** "Hərə gəlib bir şey istəyir. Biri deyir, yataq otağımı genişləndir. O biri deyir, balkonum bir az qabağa çıxsın... İzah edə bilmirsən ki, bu, təsdiqlənmiş, vahid layihədir. Layihə institutu tərəfindən verilib, ondan kənara çıxmağa ixtiyarımız yoxdur".

**Görülən işlərlə tanış olmaq üçün R.Məmmədovun müşayiəti ilə binaya daxil oluruq. Yanğından sonra ilk dəfədir daxil olduğumuz binada diqqəti çəkən əsas məsələ ensiz pilləkənlərdir. Xatırlayırsınızsa, yanğın barədə danışan sakinlərin əksəriyyəti pilləkənlərin ensizliyindən şikayətlənirdi. Həqiqətən də o pilləkənlərlə iki adamın eyni vaxtda qalxıb-düşməsi imkansızdır. Əgər bir mərtəbənin başında pilləkəndən yuxarı qalxan varsa, düşmək istəyən onu gözləməlidir və ya əksinə. Mənzillərin içinə girərkən isə işlərin sıfır mərhələsindən göründüyünün şahidi olduq. Tam uçuq vəziyyətdə mənzillər və təmirin sıfırdan başlanma mərhələsi. R.Məmmədov dedi ki, sakinlər bir çox hallarda təmir olunmuş ev yox, arzularına uyğun, yeni ev istəyirlər:** "Biri deyir, yataq otağıma dəymə. Balkonunu qabağa çıxaran vardı, tualetini otaq edən vardı. Amma indi hamının evi vahid layihə əsasında qaydaya salınacaq. Bir də görürsən, gəlir ki, balkonumu bir az yekə elə. O biri deyir, balkonumu vaxtilə mətbəx eləmişəm, elə qalsın. Soruşuruq ki, bəs kanalizasiyanı necə edək? Deyir, çöldən bir boru sallayaq, onu da çölə axıdaq. Təsəvvür edin ki, belə absurd təkliflər edən olur".

### "Evlərin 90 faizi təmirsiz olub, amma biz onlara yüksək səviyyəli evlər verəcəyik"

**Müsahibimiz sakinlərin səbirsizliyindən şikayətləndi. Onun dediyinə görə, burdakı mənzillərin 90 faizi təmirsiz olub. Amma indi hökumət sakinlərə super təmirli evləri təhvil verəcək. Bununla belə, onların yersiz göstərişləri və narazılıqları iş icraçılarını narahat edir:** "İçəri qoymursan, dava salırlar. Başa sala bilmirsən ki, bura hələ sənin evin deyil. Əvvəl binanın həyətinə girişi bağlamışdıq, camaat dava saldı. İndi də gəlirlər, yersiz tələblər irəli sürürlər. Halbuki tikinti, təmir işləri aparılan bir yerdir, bura işçilərdən başqaları girə bilməz. Təhlükəsizlik baxımından doğru deyil. Biri deyir, otaqları elə düzəlt ki, mən gəlini görməyim, onu görmək istəmirəm. Sizcə, buna biz nə edə bilərik?(gülür)"

**R.Məmmədov hesab edir ki, bəzi sakinlər bu durumdan sui-istifadə edir. Onun sözlərinə görə, yanğın zamanı binada olanlar, gerçəkdən zərər çəkənlər hazırda iş icraçılarını ən az incidənlərdir:** "İnanın ki, onlar öz hayındadılar. Gəlib bir dəfə baxıblar. Deyirlər, bilirik ki, hər şeyi məsuliyyətlə edirsiz, ona görə də sizdən xüsusi tələbimiz yoxdur. Amma yanğını hiss etməyənlər, yanğın vaxtı içəridə olmayanlar elə həşir qoparırlar ki. Bir də görürsən, deyirlər, bizi aldadacaqlar, ona görə nəzarət edirik. Belə haqsızlığı Allah götürərmi? Əslində bizim sakinlərlə danışmağa vaxtımız yoxdur. Heç belə bir öhdəliyimiz də yoxdur. Vahid, təsdiqlənmiş layihə gəlib, bundan bir addım da çıxmağa ixtiyarımız yoxdur".





### Koreyadan gətirilmiş lift, 24 saat isti-soyuq su və....

**Xatırladaq ki, binada 56 mənzil var. Hər blokda 28 mənzil yerləşib. Mənzillərdən 14-ü ikiotaqlı, 14-ü isə üçotaqlıdır. Təmir-tikinti zamanı mənzillərin ümumi sahəsi əvvəlki kimi qalır. Santexnika, elektrik, istilik sistemi sıfırdan başlanaraq qurulur. Koreyadan gətirilmiş yeni liftlərin quraşdırılması nəzərdə tutulub. Bundan başqa, binanın 24 saat boyunca isti-soyuq su ilə təmin olunacağı, eləcə də bütün mənzillərə parket döşəmə vurulması nəzərdə tutulub. Müsahiblərimiz bildirdi ki, binada əzəldən qaz olmayıb və bundan sonra da olacağı nəzərdə tutulmayıb. Buna səbəb binada ventilyasiya sisteminin olmamasıdır. R.Məmmədov dedi ki, qaz çəkilməsi üçün gərək bina yenidən qurulsun:** "Planlaşdırılan işlər və bu mərhələyə qədər görülənlər təqdirəlayiqdir. Mətbəx mebelinə qədər hər şeyi hökumət təmin edəcək. Amma camaatda səbr yoxdur. İmkan vermirlər ki, başımızı aşağı salıb, işimizi görək".

Bu arada binanın həndəvərində dolaşan və adının çəkilməsini istəməyən sakinlərdən biri isə dedi ki, burada yaşayanların bəziləri təmir-tikinti işləri əvəzinə, binanın sökülüb yenidən tikilməsinin tərəfdarıdır. Onların fikrincə, bu bina bütün hallarda temperatura dözümlü olmayacaq və bu qədər vəsait hesabına evləri təmir etmək yerinə yeni bina tikmək daha məntiqli olardı. Sakinlər bildirir ki, binanın sökülməsi tələbi ortaya çıxan gündən onlarla təkbətək danışıq aparılacağı deyilib.

❑ Sevinc TELMANQIZI














# Rusiyanın Qarabağı qaytaracağına iki(li) baxış

## Amerikalı nüfuzlu ekspertlə Kremlin “danışan dili”nin nizamlamaya yanaşmasında təhlükəli ortaqlıq; Rusiyanın 7 rayon vədinə inanmaq olarmı?..

**Dağlıq Qarabağ məsələsinə Rusiyanın təsir imkanları artıb. Bir çox təhlilçilərə görə, bunun əsas səbəbi Ukrayna olayları ilə bağlıdır. Eyni zamanda postsovet ölkələrində həmin olaylardan dolayı şimal qonşumuza münasibətdə ehtiyatlılığın, hətta xofun artması qeyd edilir. Yəni “artan imkanlar” dedikdə bu, həm də Rusiyanın daha yırtıcı bir dövlət qiyafəsinə girməsi kimi anlaşılmaqdadır.**

İstənilən halda, fakt faktlığında qalır ki, Moskva üçün Qarabağ məsələsinin önəmi Qərblə qarşıdurma və “soyuq savaş” fonunda böyüyüb. O ayrı məsələdir ki, Kreml belə “artan imkanlar”dan necə yararlanacaq, onlardan nəhayət ki, münaqişənin həlli üçün istifadə edəcəkmi?

Suala ekspertlərin cavabları birmənalı deyil. Məsələn, nüfuzlu amerikalı politoloq, ABŞ Dövlət Departamentinin sabiq müşaviri, hazırda isə Dünya Siyasəti İnstitutunun professoru, vaxtilə Qarabağa dair “ərazi mübadiləsi” variantını irəli sürmüş **Pol Qobl** hesab edir ki, Rusiya və İran hələ də Qarabağ ətrafında gərginliyin qalmasında maraqlıdır: “Həmçinin də İrəvan və Bakda gərginlikdə maraqlı olan qüvvələr mövcuddur. Çünki münaqişə zonasındakı gərginlik ermənilər və azərbaycanlıların hakimiyyətləri daxili problemlərin həllinə məcbur eləməkdən yayındırır. Yəni hazırkı durumun səbəbləri sırasında həm daxili, həm də xarici amillər var. Ancaq mən inanıram ki, Azərbaycanla Ermənistan nizamlamaya nail ola bilər - əgər xaric qüvvələr, ilk növbədə Moskva buna əngəl olmasa”.

**Başqa sözlə, amerikalı ekspert Qarabağ düyününün bu günədək açılmamasında Rusiya amilini əsas sayır. Onun problemin həllini Moskvanın necə görməsinə baxışı da maraqlıdır.** “Əgər Bakı Moskvanın satelliti olmaq istəsə, o zaman Moskva Qarabağı ”boşqab"da Azərbaycana geri verəcək" - deyib Qobl.

*****

**Bundan iki gün öncə isə ATƏT-in Minsk Qrupunun keçmiş amerikalı həmsədri Cozef Pressel oxşar fikir söyləmişdi. Sitat:** “Rusiyanın Qarabağ məsələsini yoluna qoymaq istəmədiyinə əminəm. Bu - həqiqətən belədir. Əgər Azərbaycan və Ermənistan Sovet İttifaqını bərpa edib onun tərkib hissəsi olmaq istəyirsə, o zaman heç bir həldən söhbət getməyəcək. Çox pis haldır ki, belə tendensiyalar var”.

Sözsüz ki, Pressel Dağlıq Qarabağ ətrafında 7 rayonun qaytarılması qarşılığında Azərbaycanın da Ermənistan kimi Avrasiya Birliyinə qoşulması ehtimalına işarə edir. Belə bir variantın mümkünlüyünü isə faktiki surətdə xarici işlər naziri Elmar Məmmədyarov ötən ay Moskvaya etdiyi səfəri çərçivəsində dilə gətirib.

Ancaq ona reaksiya Putinin “danışan dilləri”ndən olan “Avrasiya Hərəkatı”nın lideri Aleksandr Duqindən gəldi. Duqin dedi ki, “öncə Avrasiya Birliyinə qoşulmaq lazımdır, sonra Qarabağ məsələsinə vahid Avrasiya platformasında baxıla bilər”. Yəni belə çıxdı ki, Moskva heç bir şərt qəbul eləmir, vəd də vermir. Qarabağ məsələsinin Moskvanın əsas söz sahibi olduğu “vahid platforma”da necə “həll edildiyini” isə bir dəfə görmüşük - SSRİ formatında.


Pol Qobl


Aleksandr Duqin

*****

**Bununla belə, həm Rusiyada *(məsələn, prezident Putinin etibarlı şəxsi, İctimai Palatanın üzvü Sergey Markov)*, həm də Azərbaycanda Kremlin Qarabağ məsələsinə artan təsirlərinə nikbin baxanlar az deyil. Ötən sayımızda qeyd elədiyimiz kimi, azərbaycanlı politoloq Qabil Hüseynliyə görə, Azərbaycanla Rusiya arasında problemin həlli yönündə ciddi danışıqlar gedir və xeyli irəliləyiş də var:** “Ən azı, 7 rayonun geri qaytarılmasına ortaq baxış formalaşıb. Doğrudur, prosesdə Minsk Qrupunun həmsədrləri də iştirak edəcək, ancaq əsas məsələ iki ölkə arasındakı razılaşmadan keçir. Sözsüz ki, prezidentlərin Bakı görüşündə məsələnin bu və ya digər məqamlarına toxunulub”.

**Ekspert Kremlin Qarabağ nizamlamasına artan marağı belə izah edir:** “Putin başa düşür ki, ölkəsi arzuolunmaz vəziyyətdədir və yalnız Türkiyə ilə Azərbaycan ona əl uzadıb. Rusiya lideri Azərbaycanla münasibətlərdə tərəqqi əldə etsə, çox şeyə nail olacaq. Məsələn, hər iki dövlətin birgə maraqlarına toxunulmadan Avropa ilə razılaşdırılmış qaz siyasətini həyata keçirmək mümkün olacaq. Rusiya bu gün üzünü Azərbaycan və Türkiyəyə çevirsə, daha çox uda, hətta indiyədək itirdiklərinin yerini doldura bilər. Moskvanın Azərbaycan və Türkiyənin Avrasiya İttifaqına və Gömrük Birliyinə daxil olması barədə öz istəyini bildirməsi əbəs deyil. Bir sözlə, Kreml Qarabağ probleminin həllində səy göstərməyə, Bakı və Ankara ilə iqtisadi əlaqələr qurmağa məcburdur. Çünki bu, onun da işinə yarayır. Belə olan tərzdə Rusiya həm iqtisadi problemlərini həll etmək imkanı qazana, həm də bu ölkələri birliyə qoşmaqla dünyadan təcridolunma siyasətini bir növ kompensasiya edə bilər”.

Beləcə, bu günə Rusiyanın Qarabağı qaytaracağına iki(li) baxış mövcuddur. Amerikalı sabiq vasitəçi və politoloq Pol Qobl məsələdə nikbin deyillər və Kremlin “ipinə” odun yığmağı təhlükəli sayırlar - xüsusən də Azərbaycan üçün. Rusiya və Azərbaycandakı bəzi tanınmış ekspertlər isə əskini düşünürlər. Odur ki, əsas sual hələ də açıq qalır: Rusiyanın 7 rayon vədinə inanmaq olarmı? Əfsus ki, Putinin son Bakı səfəri də məsələyə aydınlıq gətirmədi. Demək, Pressel və Qoblun Rusiya ilə bağlı sözləri, təxminləri öz aktuallığını saxlayır.

*****

Qarabağ konfliktinin uzanmasında bir mühüm amil də diqqətdən yayınmamalıdır. Bu da ondan ibarətdir ki, uzun illərdir Ermənistanda iqtidarda olan Qarabağ klanı öz hakimiyyətinin ömrünü uzatmaq üçün münaqişədən istifadə edir. Bu mənada Qoblun sözlərində həqiqət var. Çünki “Müharibə partiyası” sayılan bu klan illərdir problemin ədalətli həllinə süni əngəllər yaradır, guya Qarabağ savaşının qalibi olduğu üçün heç bir güzəşti yaxına buraxmır. Maksimalist mövqedən çıxış edir. Problemin mərhələli həllinə çalışan prezident Levon Ter-Petrosyan məhz bu ambisiyalara görə 1998-ci ildə hakimiyyətdən uzaqlaşdırıldı.

O vaxtdan hakimiyyəti ələ alan “müharibə partiyası” münaqişənin ədalətli şəkildə yoluna qoyulmasında əsas maneələrdən biri olaraq qalır. Altını isə təbii ki, ən əvvəl Dağlıq Qarabağdakı, Ermənistandakı əhali çəkir. Ona görə ki, bu illər ərzində Ermənistan, separatçı rejim haqq elədiyi ağır blokada şərtləri altında mövcud olub - əgər buna mövcudluq demək mümkünsə.

# Erməni deputat Gümrü bazasına görə Rusiyaya üsyan etdi



**“Gümrüdəki 1-2 saylı Rusiya hərbi bazasında qayda-qanun yaratmaq lazımdır”. Bu haqda Ermənistan mətbuatına Gümrüdən seçilmiş erməni deputat Sukias Avetisyan açıqlama verib (avropa.info).**

O, rus bazasının hərbi qulluqçusu İvan Novikovun qətlə yetirilməsi ilə bağlı şərh verib: “Bu hadisənin ilk dəfə baş verməməsi göstərdi ki, onlar xeyli problem həll etməlidir. Bu hərbi hissənin əsgərləri ilə bağlı baş verən insidentlər intizamsızlığın nəticəsidir. Rusiya hərbi idarəçiliyi bu haqda düşünməlidir. İlk növbədə Gümrüdə yerləşən 102 saylı baza ilə bağlı ciddi nəticə çıxarmalıdır”.

Xatırladaq ki, bu ilin əvvəlində bazanın başqa bir hərbi qulluqçusu İvan Permyakov Gümrüdə bir erməni ailəsinin 7 üzvünü qətlə yetirmiş, hadisədən sonra bazanın ölkə ərazisindən çıxarılması tələbləri ilə kütləvi etiraz aksiyaları keçirilmişdi.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# QMİ Ramazanla bağlı hökmləri və qadağaları açıqlayıb

**Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Ramazan (orucluq) ayı ilə bağlı müsəlmanlar üçün nəzərdə tutulan şəri hökmləri və bəzi qadağaları açıqlayıb. QMİ-dən APA-ya verilən məlumata görə, bildirilib ki, əgər Ramazan ayında, zöhrdən əvvəl kafir müsəlman olsa və sübh azanından o vaxta kimi, orucu batil edən bir iş görməyibsə, vacib ehtiyata əsasən oruc niyyəti etməli və orucu başa vurmalı, yaxud əgər o gün oruc tutmasa, onun qəzasını yerinə yetirməlidir.**

Bildirilib ki, Ramazan ayı oruccunda və həmçinin müəyyən bir zamanı olan vacib orucda, sübh azanından qabaq oruc üçün niyyət etmədən yatan bir şəxs, əgər zöhrdən qabaq oyanıb niyyət edərsə, orucu səhihdir. Amma zöhrdən sonra oyanarsa, ehtiyata əsasən mütləq Allaha yaxınlaşmaq niyyəti ilə günün qalanını orucu batil edən şeylərdən çəkinməli və sonradan o günün orucunu da qəza etməlidir:

"Ramazan ayından başqa günlərdə oruc tutmaq istəyən şəxs, onun niyyətini müəyyən etməlidir. Məsələn, "qəza orucu və kəffarə orucunu tuturam" deyə niyyət etməlidir. Amma Ramazan ayında "Ramazan ayının orucunu tuturam" deyə niyyət etməsi lazım deyildir. Hətta Ramazan ayı olduğunu bilməsə və ya unudub başqa bir orucu niyyət edərsə, onun orucu Ramazan ayının orucundan hesab edilir.

Əgər Ramazan ayının olduğunu bilib və qəsdən Ramazan ayından qeyri-günün orucunun niyyətini edərsə, qəsd etdiyi oruc hesaba alınmaz və həmçinin Ramazan ayının orucu kimi də sayılmaz. Əgər o məqsəd Allaha yaxınlaşmaq qəsdinə zidd olsa *(hətta ziddiyyətli olmasa belə)*, ehtiyata əsasən Ramazan ayının orucundan hesab olunmaz. Əgər məsələn, ayın birinci gününün niyyəti ilə oruc tutsa, sonra ayın ikinci ya üçüncü günü olduğunu başa düşsə, orucu səhihdir.

Əgər sübh azanından əvvəl niyyət etsə və bundan sonra bihuş olub günarası özünə gəlsə, vacib ehtiyata əsasən o günün orucunu sonadək saxlamalıdır. Əgər tam saxlamasa, onun qəzasını yerinə yetirməlidir. Əgər sübh azanından qabaq niyyət edib, sonra sərxoş olarsa və həmin gün ərzində ayılarsa, vacib-ehtiyata əsasən o günün orucunu tamamlamalı və onun qəzasını da yerinə yetirməlidir. Əgər sübh azanından əvvəl niyyət edib yatsa və axşamdan sonra ayılsa, orucu səhihdir. Ramazan ayı olduğunu bilməsə və ya unudarsa, belə ki, zöhrdən qabaq Ramazan ayı olduğunu bilərsə, əgər orucu batil edən bir iş görmüşdürsə, orucu batildir. Buna baxmayaraq, şam azanına qədər orucu batil edən işlərdən çəkinməli və Ramazandan sonra da, o günün orucunu qəza etməlidir. Ehtiyata əsasən, əgər zöhrdən sonra da Ramazan olduğunu anlayarsa, hökm eynidir. Amma zöhrdən əvvəl başa düşsə və orucu batil edən bir iş görməsə, orucu səhihdir".

**Qeyd olunub ki, uşaq Ramazan ayında sübh azanından əvvəl həddi-buluğa çatsa, oruc tutmalıdır:** "Əgər azandan sonra həddi-buluğa çatsa, o günün orucu ona vacib deyil. Amma müstəhəbb oruc tutmaq istəsə, ehtiyata əsasən bu təqdirdə o günün orucunu tamamlaması lazımdır. Xəstə olan bir şəxs, Ramazan ayı günündə zöhrdən qabaq sağalsa və o vaxta qədər orucu batil edən bir şey etməmiş olarsa, oruc üçün niyyət edib o günün orucunu tutmalıdır. Amma zöhrdən sonra sağalarsa, o günün orucu ona vacib deyildir".

Bildirilib ki, Orucu batil edən əməllər aşağıdakılardır:

*1. Yemək və içmək;*
*2. Cima (cinsi əlaqə);*
*3. İstimna (insanın özündən sperma xaric etməsi);*
*4. Allaha, Peyğəmbərə (s) və Peyğəmbərin (s) canişinləri olan İmamlara (ə) yalan isnad vermək;*
*5. Qəliz tozun boğaza yetişməsi;*
*6. Məşhur rəyə əsasən, başı tamamilə suya batırmaq;*
*7. Sübh azanına kimi cənabət, heyz və nifas halında qalmaq;*
*8. Axıcı şeylərlə imalə etmək;*
*9. Qusmaq.*




| HİCRİ TARİXİ 1436 | MİLADİ TARİXİ 2015 | SÜBH NAMAZI | GÜN ÇIXIR | ZÖHR NAMAZI | ƏSR NAMAZI | AXŞAM NAMAZI | İŞA NAMAZI |
|---|---|---|---|---|---|---|---|
| 1 Ramazan | 18 iyun | 04:39 | 06:10 | 13:45 | 18:25 | 21:29 | 23:17 |
| 2 Ramazan | 19 iyun | 04:39 | 06:10 | 13:46 | 18:26 | 21:30 | 23:18 |
| 3 Ramazan | 20 iyun | 04:40 | 06:10 | 13:46 | 18:26 | 21:30 | 23:18 |
| 4 Ramazan | 21 iyun | 04:40 | 06:10 | 13:46 | 18:26 | 21:30 | 23:18 |
| 5 Ramazan | 22 iyun | 04:40 | 06:11 | 13:46 | 18:26 | 21:31 | 23:19 |
| 6 Ramazan | 23 iyun | 04:40 | 06:11 | 13:46 | 18:27 | 21:31 | 23:19 |
| 7 Ramazan | 24 iyun | 04:40 | 06:11 | 13:47 | 18:27 | 21:31 | 23:19 |
| 8 Ramazan | 25 iyun | 04:40 | 06:11 | 13:47 | 18:27 | 21:31 | 23:19 |
| 9 Ramazan | 26 iyun | 04:41 | 06:12 | 13:47 | 18:27 | 21:31 | 23:19 |
| 10 Ramazan | 27 iyun | 04:41 | 06:12 | 13:47 | 18:27 | 21:31 | 23:19 |
| 11 Ramazan | 28 iyun | 04:42 | 06:12 | 13:47 | 18:27 | 21:31 | 23:19 |
| 12 Ramazan | 29 iyun | 04:42 | 06:13 | 13:48 | 18:28 | 21:31 | 23:19 |
| 13 Ramazan | 30 iyun | 04:43 | 06:13 | 13:48 | 18:28 | 21:31 | 23:19 |
| 14 Ramazan | 01 iyul | 04:43 | 06:14 | 13:48 | 18:28 | 21:31 | 23:19 |
| 15 Ramazan | 02 iyul | 04:44 | 06:14 | 13:48 | 18:28 | 21:31 | 23:18 |
| 16 Ramazan | 03 iyul | 04:45 | 06:15 | 13:48 | 18:28 | 21:31 | 23:18 |
| 17 Ramazan | 04 iyul | 04:45 | 06:15 | 13:49 | 18:28 | 21:31 | 23:17 |
| 18 Ramazan | 05 iyul | 04:46 | 06:16 | 13:49 | 18:28 | 21:31 | 23:17 |
| 19 Ramazan | 06 iyul | 04:47 | 06:16 | 13:49 | 18:28 | 21:30 | 23:17 |
| 20 Ramazan | 07 iyul | 04:48 | 06:17 | 13:49 | 18:28 | 21:30 | 23:16 |
| 21 Ramazan | 08 iyul | 04:48 | 06:17 | 13:49 | 18:28 | 21:30 | 23:15 |
| 22 Ramazan | 09 iyul | 04:49 | 06:18 | 13:50 | 18:28 | 21:30 | 23:15 |
| 23 Ramazan | 10 iyul | 04:50 | 06:19 | 13:50 | 18:28 | 21:29 | 23:14 |
| 24 Ramazan | 11 iyul | 04:51 | 06:19 | 13:50 | 18:28 | 21:29 | 23:13 |
| 25 Ramazan | 12 iyul | 04:52 | 06:20 | 13:50 | 18:28 | 21:28 | 23:12 |
| 26 Ramazan | 13 iyul | 04:53 | 06:21 | 13:50 | 18:28 | 21:28 | 23:11 |
| 27 Ramazan | 14 iyul | 04:54 | 06:22 | 13:50 | 18:28 | 21:27 | 23:10 |
| 28 Ramazan | 15 iyul | 04:55 | 06:22 | 13:50 | 18:28 | 21:27 | 23:09 |
| 29 Ramazan | 16 iyul | 04:56 | 06:23 | 13:50 | 18:27 | 21:26 | 23:08 |
| 30 Ramazan | 17 iyul | 04:57 | 06:24 | 13:51 | 18:27 | 21:26 | 23:07 |

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ağdam | +11 | Daşkəsən | +15 | İmişli | +7 | Mingəçevir | +11 | Şəki | +12 |
| Ağdaş | +10 | Şabran | +4 | Kəlbəcər | +15 | Marneuli (Tiflis) | +20 | Şəmkir | +15 |
| Ağsu | +5 | Şirvan | +4 | Kürdəmir | +6 | Naxçıvan | +18 | Şərur | +18 |
| Ağcabədi | +10 | Füzuli | +11 | Qax | +11 | Neftçala | +3 | Şuşa | +13 |
| Ağstafa | +18 | Göyçay | +8 | Qazax | +19 | Oğuz | +11 | Tərtər | +12 |
| Astara | +4 | Gəncə | +14 | Qəbələ | +8 | Ordubad | +16 | Tovuz | +16 |
| Babək | +18 | Gədəbəy | +16 | Quba | +5 | Saatlı | +6 | Yardımlı | +8 |
| Balakən | +5 | Goranboy | +12 | Qusar | +4 | Sabirabad | +6 | Yevlax | +11 |
| Beyləqan | +10 | Hacıqabul | +4 | Laçın | +14 | Salyan | +4 | Ucar | +8 |
| Bərdə | +11 | Horadiz | +10 | Lənkəran | +5 | Siyəzən | +3 | Zaqatala | +15 |
| Cəlilabad | +6 | Göygöl | +14 | Lerik | +7 | Sumqayıt | +1 | Zəngilan | +13 |
| Cəbrayıl | +12 | Xaçmaz | +4 | Masallı | +5 | Şamaxı | +6 | Zərdab | +9 |
| Culfa | +18 | İsmayıllı | +6 | Masazır | +3 | Şahbuz | +18 | | |

# Şadlıq saraylarında qaydalar dəyişdi

## Personal üst geyimlərini və şəxsi əşyalarını qarderobda saxlamalı, işə başlamazdan əvvəl əllərini təmiz yumalı, təmiz xalat və əlcək geyinməli, başlarını örtməlidir...

**"Şadlıq saraylarının təsnifatı və ümumi qaydalar" dövlət standartına dəyişiklik edilib. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindən ANS PRESS-ə verilən məlumata görə, Dövlət Komitəsinin əmri ilə AZS 746-2012 "Şadlıq saraylarının təsnifatı və ümumi qaydalar" dövlət standartına dəyişiklik edilib. Dəyişikliyin tətbiq vaxtı 1 sentyabr 2015-ci il tarixdən müəyyən edilib.**

Dəyişikliyə əsasən mətbəxdə qabların yuyulması iki üsulla-əl və qabyuyan maşınlar vasitəsilə aparılmalıdır. Qablar əl ilə yuyularkən müəssisə iri mətbəx qazanları və avadanlıqların yuyulması üçün üç bölümlü, şüşə qablar və mətbəx dəstlərinin yuyulması üçün iki bölümlü vannalarla təmin olunmalıdır. Təmiz mətbəx qabları və avadanlıqların alt hissəsi döşəmədən ən azı 50-70 sm hündürdə olan rəflərdə, təmiz mətbəx dəstləri zalda xüsusi şkaflarda, təmiz boşqablar isə bağlı şkaflarda və ya rəflərdə saxlanmalıdır. Onların məcməyidə səpələnmiş vəziyyətdə saxlanmasına icazə verilmir.

Standarta digər dəyişiklik hazırlanan yeməklərin realizasiyası və saxlanması ilə bağlıdır. Belə ki, "İsveç masası" xidmət növündə təqdim olunan marmitdə, sobada qızdırılan qablarda olan isti yeməklər ən çoxu üç saat ərzində, soyudulmuş hazır soyuq yeməklər isə bir saat ərzində realizə edilməlidir və realizasiya zamanı isti yeməklərin temperaturu 750C-dən aşağı, soyuq yeməklər və içkilərin temperaturu isə 140C-dən yuxarı olmamalıdır. Həmçinin salatların inqrediyentləri qatışdırılmamış vəziyyətdə 2-6 dərəcədə 6 saatdan çox saxlanılmamalıdır, qatışdırıldıqdan sonra dərhal stola verilməlidir. Yeməklərin istehsalı zamanı istifadə olunan ərzaq xammallarında və ərzaq məhsullarında insan sağlamlığına potensial təhlükəli olan kimyəvi və bioloji maddələr normativ-hüquqi sənədlərdə müəyyən edilmiş normadan artıq olmamalıdır.

Tətbiq edilən digər dəyişikliyə əsasən ictimai iaşə müəssisələrində kulinariya məhsulları hazırlanarkən baytarlıq ştampı (möhürü) və şəhadətnaməsi olmayan bütün növ kənd təsərrüfatı heyvanlarının ətindən, quş əti və quş yumurtasından, ördək və qaz yumurtalarından, hermetikliyi pozulmuş, şişmiş konservlərdən, anbar zərərvericiləri ilə yoluxmuş qarabaşaq, un, düyü, quru meyvələrdən, qurdlu və əzilmiş təzə göbələklərdən, istifadə müddəti başa çatmış və ya başa çatmaq üzrə olan, xüsusilə tez xarab olan məhsullardan və s. istifadə etmək qadağandır.

Həmçinin məhsulların soyuducuda saxlanılması zamanı müəyyən qaydalara riayət olunmalıdır. Belə ki, yeni qaydalara əsasən ətin saxlandığı soyuducu kameralar asan yuyula bilən gigiyenik örtüklü rəflərlə təmin olunmalıdır. Soyudulmuş ət cəmdəkləri, yarımcəmdəklər və dörddə bir cəmdəklər bir-birinə, döşəməyə və divara toxunmamaq şərtilə qarmaqlardan asılmış vəziyyətdə, həmçinin xama, kəsmik, mayonez və s. ağartı məhsulları ağzı qapaqla yaxşı bağlanan qablarda, kolbasalar isə qarmaqlardan asılmış vəziyyətdə saxlanmalıdır.

Personalın şəxsi gigiyenik qaydalarına da dəyişiklik edilib. Belə ki, personal üst geyimlərini və şəxsi əşyalarını qarderobda saxlamalı, işə başlamazdan əvvəl əllərini təmiz yumalı, təmiz xalat və əlcək geyinməli, başlarını örtməli və saçlarını diqqətlə örtüyün altına yığmalıdır. Həmçinin əllərində irinli sızanaqlar, kəsiyi, yanığı olan, yuxarı nəfəs yolları epidemiyalı xəstələr bu sahələrdə işə buraxılmamalıdır.


# Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini

**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impotensiyadək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyüməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.

Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 190 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-50.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.

Tel: (051) 984-90-63

Qəbələdə çox mənzərəli yerdə 60 sot sahəsi olan bir bağ satılır. Bağda 75 ədəd meyvə ağacı var. Hündür dağın düz ətəyindədir. Kvadrat şəklindədir. Qazı, suyu, işığı var. Bakı-Qəbələ yolundan 800 metr məsafədədir. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.

Əlaqə telefonu: (055) 206-14-61

Qəbələ rayonunda tam işlək vəziyyətdə olan parket fabriki bütün avadanlıqları ilə birlikdə satılır. Qiyməti razılaşma yolu ilə. Hissə-hissə ödəniş mümkündür.

Əlaqə telefonu: (055) 206-14-61

Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.

Tel: (012) 437-88-05 (13:00-dan sonra)
(050) 312-72-92 (13:00-dan sonra 17:00-dək)

Sabunçu rayonu Şəhər Şossesi, Elşən Mehdiyev küçəsində 3,7 sot torpağın içində 4 otaqlı ev satılır. Ev Koroğlu metrosundan 5 dəqiqəlik yolda, Sabunçu körpüsünün yanında, Bakı Olimpiya stadionunun yaxınlığında yerləşir. Hər şəraiti (qaz-işıq), telefonu, interneti, xüsusi xətlə çəkilmiş daimi şirin suyu, həyətində 10 tonluq su hovuzu var. Evin ümumi sahəsi 120 kv.metrdir. Hamam-tualet evə bitişikdir. Evdən əlavə, həyətdə iki otaqlı yardımçı tikili var. Bir balaca əl gəzdirməklə tikilidən yaşayış məqsədilə də istifadə etmək mümkündür. Həyətdə həmçinin meyvə ağacları var. Qiyməti razılaşma ilə.

Telefon: 055 260 69 84.

Hyundai Sonata 2007, 10300 usd, probeq 98000 km originaldi, 2400 motor, 172 a.g. , qara, lyuk, kondisioner, ABS, mərkəzi qapanma, təkərləri təzədi, oz maşınımdı.Təcili satıram.Servis maşınıdı. Maşında problem yoxdu, udar görməyib.

(050)-535-56-25 Eltay.





# "Bakcell" Ulduzum Bahar lotereyasının nəticələrini elan etdi

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti Ulduzum Bahar lotereyasının nəticələrini elan etdi. Ulduzum proqramının tərəfdaşları olan Hesab.az, Megafun və 189 Taksi xidmətinin iştirakı ilə keçirilən lotereya 17 martdan 25 may 2015-ci ilə kimi olmaqla 70 gün davam edib.**

**Lotereyada iştirak etmək üçün əsas şərtlərdən biri ən azı 5 AZN xərcləməklə Ulduzum tərəfdaşlarının təqdim etdiyi xidmətlərin birindən Ulduzum kodu vasitəsilə endirim almaq və xərclənən hər 5 AZN üçün 1 uduş şansı əldə etmək idi. Xərclənən məbləğ 20 AZN-ə çatdıqdan sonra şanslar 2 dəfə artırdı və hər bir iştirakçı xərclədiyi 15 AZN üçün 3 və 20 AZN üçün 4*2=8 uduş şansı qazana bilirdi.**

**Lotereyada 70 nəfər «Bakcell» abunəçisi ALOV smartfonları udub. ALOV smartfonunu qazanan iştirakçılardan biri 600 uduş şansına malik olub.**

**İngiltərənin Mançester şəhərinə 2 nəfərlik səyahət kuponunu isə 11 uduş şansı ilə lotereyanın əsas qalibi elan edilmiş Aygün Ələkbərova qazanıb. "Öncə «Bakcell» şirkətinə abunəçilərə belə imkan yaratdığı üçün təşəkkür edir və bu kimi şansların gələcəkdə də davam edəcəyinə ümid edirəm. Bir çox Mançester Yunayted azarkeşinin arzusunda olduğu bu qalibiyyət mənim üçün gözlənilməz oldu və mənə sevinc bəxş etdi. Şübhəsiz ki, qalibi olduğum bu müsabiqə futbola olan marağımın daha da artmasında əvəzsiz rol oynadı", xanım Ələkbərova dedi.**

**Lotereyada iştirak edən, lakin qalib gəlməyən abunəçilər isə lotereya bitdikdən sonra «Bakcell» şəbəkəsi daxilində 20 dəqiqəlik pulsuz danışıq hədiyyəsi qazanıblar.**

**ALOV smartfonlarını qazanan qaliblərin adlarını öyrənmək üçün bu linkə daxil olun: http://ulduzum.az/lottery.php?lang=az&opt=winners**

**Öz müştərilərini motivasiya etmək, ruhlandırmaq və fayda əldə etməsinə imkan yaratmaq üçün Bakcell Ulduzum proqramı bu cür layihələri gələcəkdə də davam etdirməyi planlaşdırır.**

**Bakcell şirkəti bu proqram çərçivəsində bütün abunəçilərinə ən müxtəlif sahələr üzrə bir sıra üstünlüklər və xidmətlər təklif edir.**

**Proqrama qoşulmaq olduqca asan və pulsuzdur. İstənilən abunəçi "1" yazıb 5555 nömrəsinə pulsuz SMS yollayaraq Ulduzum proqramına üzv ola bilər. Daha ətraflı məlumat üçün www.ulduzum.az səhifəsinə daxil olun.**

YENİ MÜSAVAT
N 131 (6159) 18 iyun 2015

**Xəbər verildiyi kimi, iyunun 13-də Gürcüstanda baş vermiş daşqın nəticəsində yaşayış evləri, magistral yollar, avtomobillər dağılıb. Bir çox insan sel sularında yox olub. Həmçinin təbii fəlakət Tiflis zooparkından da yan keçməyib. Belə ki, zooparkda saxlanılan heyvanların bir çoxu tələf olub, 30-dan çox heyvan - şir, pələng, ayı, canavar, timsah və s. kimi yırtıcı heyvanlar şəhərin küçələrinə axışıb. Onlardan bəzilərinin az sonra insanlara hücum elədiyi, nəticədə tələfatın artdığı deyilir.**

# Bakı zooparkında uşaqlar üçün sürpriz hazırlanır

## Direktor Azər Hüseynov Tiflis olayı barədə:

## "Təbii fəlakətlərdən biz də sığortalanmamışıq..."







Tiflisdəki faciəvi olay Bakı zooparkında da təhlükəsizlik tədbirlərinin hansı səviyyədə olması məsələsini gündəmə gətirir. Bəs bizdə bununla bağlı vəziyyət necədir? Bu və digər suallara cavab tapmaq üçün Bakı zooparkına yollandıq.

Zooparkda ikən **direktor Azər Hüseynovun** ərazidə heyvanlar üçün saxlanma yeri tikdirdiyini, ustalara müəyyən göstərişlər verdiyini müşahidə etdik. Xatırladaq ki, Azər Hüseynov Bakı zooparkının Gürcüstanda dağılmış zooparkın heyvanlarını müvəqqəti qəbul etməyə hazır olması barədə açıqlama vermişdi. Biz də öncə tikinti işi aparılan yerin məhz bu heyvanlar üçün nəzərdə tutulduğunu zənn etdik.

**Ancaq direktor tikilən yerin pələnglər üçün nəzərdə tutulduğunu bildirdi. O, zoopark ərazisindəki bir çox pələnglərin yeri dar olduğundan onlar üçün yeni "ev" tikdirdiyini söylədi. Direktor Gürcüstana bir daha yardım əlini uzatdıqlarını bildirdi. O həmçinin bu cür faciə Azərbaycanda baş verərsə, zooparkın heyvanlarının bundan hansısa bir şəkildə sığortalanmadığını dedi:** "Dövlət hesabına olmaq şərti ilə mən Gürcüstanda baş vermiş faciə ilə bağlı kömək edə bilərəm. Mən hazırda gedib heç yerdən heç bir heyvanı gətirə bilmərəm. Mənim ancaq müraciətim oldu ki, bu bədbəxt hadisə ilə əlaqədar bir qonşu, həmkar kimi kömək edə bilərəm. Mən Gürcüstandakı həmin zooloji parkın rəhbər işçiləri ilə dostam. Bir insan kimi yardım təklifi etməyi özümə borc bildim. Bazar günü onları axtardım, amma telefonuma cavab vermədilər. Çünki onlar bu dəqiqə başlarını itiriblər, gərgindilər. Daha sonra həmin zooloji parkın direktoru Zorab mənə zəng etdi və öz minnətdarlığını bildirdi. Dedi ki, əgər kömək lazım olsa bizə müraciət edəcək. Bizə hazırda bu heyvanlar lazım deyil. O şərtlə qəbul edərik ki, gətirib bir müddət saxlayıb sonra qaytaraq".

**Ölkəmizdə də bu cür təbii fəlakət baş verərsə, bizim zooparkdakı heyvanların taleyinin necə olacağına gəlincə, A. Hüseynov heç kimin təbii fəlakətdən sığortalanmadığını dedi:** "Təbii fəlakətlər qəfildən baş verən hadisədir. Məsələn, zəlzələ olanda binada yaşayan sakinlər nə edə bilər?! Biz buna hazırıqmı? Əgər bizdə Tokiodakı kimi yüksək bal gücündə zəlzələ olsa onun qarşısını təbii ki, almaq mümkün olmaz. Bizim zooloji parkda çalışırıq ki, heyvanların heç bir problemi, qaçmaq riski, insanlara zərər vermə problemi olmasın. Hazırda da pələng üçün yer tikirik. Mən bütün işlərin üstündə dururam ki, insan faktoru olan hansısa faciə baş verməsin. Təbii fəlakətlərin təbiətdə etdiyi dəyişiklərin qarşısında insan gücsüzdü. Hər halda, Xəzər dənizi daşıb gəlib zooparka qədər çıxası deyil. Eyni zamanda zooparkın yanından hansısa çay da axmır. Mən təsəvvür edə bilmirəm ki, nə dərəcədə yağış yağa ki, zooparkı yuyub aparsın. Gürcüstandakı zooloji parkda mən bir neçə dəfə olmuşdum. Təsəvvür edin ki, o zoopark sanki dərədə yerləşirdi. Hələ o vaxt mən onlara irad tutmuşdum ki, bu cür heyvan saxlamaq risklidir. Valerlərin altını su yuyub apardı deyə, şir və pələnglər çölə çıxdı. Bayaq zəng ediblər ki, qırmızı körpüdə pinqvin görünüb. Mənə sual verdilər ki, onu saxlaya bilərsiz. Əgər bura yaxın gəlsə təbii ki, saxlayardıq. Ancaq Qırmızı körpü Gürcüstana daha yaxındır. Görünür ki, o pinqvin Kür çayı ilə axıb gəlib. Yalan ya doğru məlumatdı, bilmirəm. Əgər bizim köməyimizə ehtiyac olarsa, həmişə kömək əlimizi uzatmağa hazırıq".

**A.Hüseynov zooloji parkın gələcək planlarından da danışdı:** "Artıq uzun müddətdir ki, burada çalışıram. Bizim zooloji park hansısa faciə yaşamayıb və çalışıram ki, təhlükəsizlik qaydalarına riayət edilsin. Pələngimizin yeri dar olduğu üçün yeni yer tikirik. Daha sonra kirpi üçün yer tikmişik. Biz istəyirik ki, ev heyvanları, məsələn, keçi balaları, dovşanlar olan yerdə ünsiyyət olsun. Uşaqlar onlara əl vurub oynaya bilsinlər. Biz bunu bir ay ərzində həyata keçirib uşaqlar üçün sürpriz edəcəyik".

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**

# Dövlət Komitəsinin işçiləri aylardır maaş üzünə həsrətdir...

## Ləğv edilərək səlahiyyətləri Əmlak Komitəsinə verilən qurumun işçisi Əyyub Həziyev: "Nə işimiz, nə də maaş barəsində bizə məlumat verilmir"

**İki ay öncə Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi ləğv edildi. Müvafiq sərəncamla həmin qurumun səlahiyyətləri Əmlak Məsələləri Dövlət Komitəsinin tərkibinə verildi. Bundan sonra həmin qurumun işçiləri maaş üzünə həsrət qalıb. Bu barədə komitənin 25 ilə yaxın işçisi olan Əyyub Həziyev tərəfindən "Yeni Müsavat"a şikayət daxil olub. Ə.Həziyevin sözlərinə görə, bu ilin mart ayından başlayaraq işçilər komitədən maaş ala bilmir:**




"Torpaq və Xəritəçəkmə Komitəsində 25 ilə yaxın işləmişəm. Bu ilin fevral ayının 5-də ölkə prezidentinin fərmanı ilə Torpaq və Xəritəçəkmə Komitəsi ləğv edilərək funksiyaları Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə verilib. Bundan sonra biz demək olar ki, işdən azad olunduq. Bizə bildirdilər ki, zəng edərək bir-bir işçiləri yenidən çağıracaqlar. Doğrudur, bizi çağırdılar, lakin guya savadımızı yoxlamaq məqsədilə işçilərə qəsdən dolandırıcı suallar verib işdən yayındırmağa başladılar. Hətta bir işçimizə "Karl Marksın atası kimdir?" deyə sual verilib. Bu günəcən idarəyə gedib gəlirik, lakin nə iş, nə də maaş barəsində bizə məlumat verilmir. Bildirlir ki, yuxarıdan tapşırıq gəlincə bütün məsələlər öz həllini tapacaq. Hər birimizin ailəsi var və bizim maddi imkanımız sıfır vəziyyətindədir".

**Əyyub Həziyev işçiləri incidən rəhbərlik haqqında da danışıb:**

"Hazırda biz torpaqların kadastrı, monitorinqi, reyestri və torpaq bazarının təşkili şöbəsindəyik. Bu şöbəyə yeni rəhbər, Ramiz *(familiyası məlum deyil)* adlı şəxs başçılıq edir. Bu şəxs və onun ətrafındakı dəstə hər vəchlə çalışır ki, köhnə işçiləri sıradan çıxararaq, xüsusi tapşırıq və rüşvət vasitəsilə gələn işçiləri komitəyə daxil etsin. İşçilər arasında yayılan məlumata görə, əslində dövlət tərəfindən bizə maaş ayrılır, lakin Ramiz və onun ətrafı o büdcəyə yiyələnərək məsələni ört-basdır etməyə çalışır. Dəfələrlə Ramiz bəyin qəbuluna düşmək istəmişəm. Lakin mənə bildirilib ki, o, heç bir işçi ilə əlaqə saxlamaq istəmir".

Qeyd edək ki, 2015-ci ilin 5 fevralında ölkə prezidentinin fərmanı ilə Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi ləğv edilərək dövlət torpaq kadastrı, yerquruluşu, geodeziya, torpaq bazarının təşkili, dövlət torpaq reyestrini aparmaq, bələdiyyələrin elektron daşıyıcıda və kağız üzərində xəritəni, habelə rübdə bir dəfə bələdiyyələrin hüdudları daxilində dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq sahələrində baş vermiş dəyişikliklər barədə arayış Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim etmək sahəsindəki funksiyaları Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinə verilib. Torpaqların kadastrı, monitorinqi, reyestri və torpaq bazarının təşkili şöbəsinin işçiləri Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Əsasnaməsinə uyğun olaraq Komitə rəhbərliyinin göstəriş və tapşırıqlarını həyata keçirirlər.

**Məsələ ilə əlaqədar olaraq adıçəkilən komitənin şöbəsi ilə əlaqə saxlamağa çalışsaq da cəhdlərimiz boşa çıxdı.**

❑ **Xalidə GƏRAY**



# Tiflis sakininə hücum edən pələng öldürülüb

**Tiflis sakininə hücum edən pələng öldürülüb. APA-nın "apsny.ge" saytına istinadən verdiyi məlumata görə, albinos pələngin (ağ rəngdə olan pələng nadir növlərdən sayılır və şahidlər əvvəlcə onun şir olduğunu zənn ediblər) hücum etdiyi kişinin də öldüyü bildirilir. Qeyd edək ki, "apsny.ge" saytının verdiyi məlumata görə, Tiflisdəki Qəhrəmanlar Meydanı istiqamətində, "Laquna Vere" keçmiş üzgüçülük hovuzunun ərazisində sakinlər şir görüblər. Şahidlər həmin şirin bir kişiyə hücum etdiyini bildiriblər. Ərazidə yerləşən anbarın sahibi bu məkana girərkən şir gizləndiyi yerdən çıxıb və ona hücum edib. Şahidlər kişinin yerdə hərəkətsiz uzandığını deyiblər. Ətrafdakı insanlar qaçıblar. Hadisə yerinə patrul polisi gəlib. Sakinlər şirin öldürülməsini tələb ediblər. Xatırladaq ki, Tiflisdə baş vermiş daşqın şəhərdəki zooparkın dağılmasına səbəb olub. Nəticədə zooparkdakı bir çox vəhşi heyvan qaçıb.**

YENİ MÜSAVAT
Son səhifə
N 131 (6159) 18 iyun 2015



## İranda tanışlıq saytı

İranın geniş və gənc əhalisi arasında boşanma faizinin yüksəkliyinə görə hökumət Amur - məhəbbət tanrısı rolunu öz üzərinə götürərək dövlət tanışlıq saytının açılmasına qərar verib. İranda bütün izdivacların 22 faizi boşanma ilə nəticələnir və paytaxt Tehranda bu rəqəm daha yüksəkdir. Boşanmaların çoxu yaşı 30-dan az olanlar arasında baş verir. Bu yaş qrupu isə ölkə əhalisinin yarısını təşkil edir. Rəsmiləri narahat edən də bu statistikadır. Bu ilin əvvəllərində tanışlıq saytının yaradılması planlarını elan edərkən ölkənin idman və gənclər naziri Mahmud Qolzari ümid etdiyini bildirmişdi ki, bu sayt İranda 100 min yeni ailənin qurulmasına və gənclər arasında evlilik probleminin həll olunmasına imkan verəcək. Bu, çox cəsarətli vəd olsa da, hökumətin bu sahədə dönüş yaratmaq əzmindən xəbər verir.

Yeni sayt hamsan.tebyan.net adlanır və onu birbaşa ali rəhbərin nəzarəti altında olan İslam İnkişaf Təşkilatı işlədir. Əslində buradakı tanışlıq guşəsi İslam həyat tərzini təbliğ edən tebyan.net portalının içində qurulub. Hamsan.tebyan.net-i 100-dək moderator tənzimləyir, lakin o, hələlik yalnız Tehranı əhatə edir. Gələcəkdə saytın fəaliyyətini başqa regionlara genişləndirmək planları var. İstifadəçilərdən özləri barədə elementar məlumatları, məsələn, boyun hündürlüyü, çəki və sair kimi məlumatları daxil etmələri rica olunur. Onlar həmçinin valideynlərinin vətəndaşlıq vəziyyətini və onların peşələrini də göstərməlidirlər.

# Əriyin faydaları

- Ürək əzələlərini qüvvətləndirir;
- Beynin fəaliyyətini nizamlayır;
- Qaraciyərin piylənməsinin qarşısını alır;
- Sümükləri möhkəmləndirir;
- Qan azlığının qarşısını alır;
- Xərçəngə qarşı qoruyur;
- Pəhriz saxlayanların az miqdarda tez-tez ərik qurusu yeməkləri onlarda toxluq hissinin yaranmasına və yemək yeməməyə gətirib çıxarır.



## Oruc tutarkən imsaqda doğru bilib etdiyimiz yanlışlar

**"Gün ərzindəki susuzluğun və hərarətin qarşısını almaq üçün imsaqda çoxlu çay içmək fikri səhvdir". Bunu Türkiyədəki pəhriz mütəxəssisi Zərrin Delibaş Tez deyib. Tez oruc tutanların Ramazan ayını sağlam keçirmələri üçün sahurda qəbul etdikləri qidalara diqqət etməli olduqlarını vurğulayıb: "Sahur vaxtı ağır yeməklərdən imtina etmək lazımdır. Əks təqdirdə, bədən öz müqavimətini itirər, bağırsaqların fəallığı azalar, mədə problemləri özünü göstərər. Bu səbəbdən də yüngül qidalar qəbul etmək lazımdır. İmsaqda əsasən göyərti və sulu yeməklər yemək məsləhətdir. Gün ərzində meydana gələcək susuzluğu və hərarəti azaltmaq üçün çay içmək fikri isə səhvdir. Çayın tərkibində çox miqdarda sodium var. Bu, insanın gün ərzində susamasına səbəb olur".**

Çayın sidikqovucu özəlliyi olduğunu bildirən mütəxəssis bu vəziyyətin bədənin mineral və vitamin tarazlığını pozduğunu da deyir. İnsanda bədənin ehtiyacı olan mayenin vücudda qalmasını təmin edən "ADH" hormonu var. Çay bu hormona təzyiq göstərir və çaydan sonra tualet ehtiyacı da bu səbəbdən yaranır.





## 20 atom bombası gücündə zəlzələ

İki ay əvvəl Nepalda baş verən güclü zəlzələ böyük fəlakətlə yanaşı geoloji dəyişikliyə də səbəb olub. Bu ilin aprel ayında Nepalda baş vermiş zəlzələ nəticəsində dünyanın ən böyük dağı hesab edilən Everest (Comolonqma) 3 santimetr sürüşməyə məruz qalıb. Bu barədə "China Daily" xəbər yayıb. Xəbərdə bildirilir ki, maqnitudası 7.3 bal olan zəlzələ 20 atom bombası gücündə qiymətləndirilir. Hər il şimal-şərq istiqamətində 4 santimetr sürüşdüyü bilinən Everestdə bu dəfə zəlzələ nəticəsində əksinə olub. Xatırladaq ki, aprel ayında baş vermiş rixter cədvəli ilə 7.8 bal gücündə zəlzələ nəticəsində 8 600-dən çox insan ölmüşdü.




**QOÇ** - Təzadlı hadisələr yaşayacaqsınız. Bir tərəfdən təzə təkliflər, digər tərəfdənsə maddi durumunuzun qənaətbəxş olması sizi sevindirəcək. Lakin mübahisə və konfliktlər də gözlənilir.

**BUĞA** - Astroloji göstəricilər bu təqvimin səmərəli keçəcəyindən xəbər verir. İstər qarşılıqlı münasibətlərdə, istərsə də iş prinsipində nəzərəçarpacaq nailiyyətləriniz gözlənilir.

**ƏKİZLƏR** - Şəxsi həyatınızda əsaslı dönüş mümkündür. Nəzərdə tutduğunuz planları sistemləşdirməklə bütün stresslərinizi yüngülləşdirə bilərsiniz. Axı indi Göy qübbəsinə sizin bürc hakimdir.

**XƏRÇƏNG** - Səyahət və səfərlər üçün əlverişli gündür. Amma elə edin ki, gedəcəyiniz yerdə qəlbiqara adamlar olmasın. Əks təqdirdə ovqatınız korlana bilər. Ailə üzvlərinizə qayğı göstərin.

**ŞİR** - Yaxın dostlarınızın dəstəyindən maksimum yararlanın. Belə olduqda böyük işlərin öhdəsindən gələ biləcəksiniz. Büdcənizi artırmaq naminə istənilən çətinliyə tab gətirməlisiniz.

**QIZ** - Göy qübbəsinin qənaətlərinə görə ixtiyarınızda olan bu təqvimi romantik bir tərzdə başa vuracaqsınız. Nahardan sonra ikili görüşlər, büdcədə artım və qonaqlıqlar yolunuzu gözləyir.

**TƏRƏZİ** - Bu gözəl günü daha çox ailənizlə bir yerdə keçirməyə çalışın. Çünki başqa ünvanlarda qarşılaşdığınız hadisələr ovqatınıza pis təsir edəcək. Ayın sonrakı günlərinin iş planını tutun.

**ƏQRƏB** - Durumunuzdan bəlli olur ki, artıq Göy qübbəsi ürəyinizin səsini eşitməkdədir. Bu səbəbdən də qarşısıalınmaz sandığınız maneələr asanlıqla aradan qalxmağa başlayacaq.

**OXATAN** - Göy qübbəsi sizi səbrli olmağa çağırır. Əgər bu tövsiyələrə əməl etsəniz, bu təqvimdən razı qalacaqsınız. Sevgiyə diqqəti artırın və dünyadan getmişləriniz üçün dualar oxuyun.

**OĞLAQ** - Nahara qədər hər hansı riskli hərəkətlər etməkdən çəkinməməlisiniz. Çünki nahara qədər buna şansınız olacaq. Saat 16-18 aralığında isə sağlıq durumunuza diqqət yetirin.

**SUTÖKƏN** - Ümumi süstlüyünüz olsa da, boş oturmayın. Əksinə, qlobal problemlərinizi həll edə biləcək şəxslərlə görüşün. Bu, sizi perspektivlərinizə daha da yaxınlaşdıra bilər. Qəlbinizi sevgisiz qoymayın.

**BALIQLAR** - Bütün hallarda əyləncələrdən uzaq olun. Bu qədər problemin içində kef-damağa nə ehtiyac? Yaxşı olar ki, gələcək planlar barədə müzakirələr aparasınız. Bir daha deyirik: ciddi və əzmkar olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Məşhur futbolçu avtomobil qəzasına düşüb



**"Yuventus" klubunun məşhur futbolçusu Arturo Vidal avtomobil qəzası keçirib. Avtosfer.az atv.az-a istinadən xəbər verir ki, futbolçu və həyat yoldaşı Maria Teresa Matus qəzadan sağ qurtulublar.**

Futbolçunun lüks avtomobili isə bərbad hala düşüb. Qəza ilə bağlı aparılan araşdırmalar zamanı məlum olub ki, futbolçu avtomobili içkili vəziyyətdə idarə edib.

**Səhifəni hazırladı: ŞAHNAZ**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.